Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 258 (7985) CÜMƏ, 16 noyabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik



# İlham Əliyevin növbəti abadlıq-quruculuq layihəsi







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Bakının Yasamal rayonu ərazisində yerləşən Təzəpir məscidinin ətrafındakı ərazidə yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılması və abadlıq-quruculuq işləri çərçivəsində həyata keçirilən tədbirlərin icra vəziyyəti ilə tanış olub.**

AZƏRTAC xəbər verir ki, dövlət başçısına görülən işlər barədə məlumat verildi.

Prezident İlham Əliyevin 2016-cı ilin avqustunda imzaladığı müvafiq sərəncamlarla ayrılmış vəsaitlər hesabına Bakı şəhərinin Yasamal rayonunda yerləşən Füzuli meydanı ətrafındakı ərazidə yeni yolların çəkilməsi, yaşıllaşdırma və abadlıq işlərinin görülməsi, habelə Təzəpir məscidinin ətrafındakı ərazinin abadlaşdırılması, buranın yol-nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi və ziyarətə gələnlərə avtomobillərini saxlamaları üçün imkan yaratmaq məqsədilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi və Yasamal Rayon İcra Hakimiyyəti tərəfindən həmin ərazidə iri-həcmli layihələrin icrasına başlanılıb.

İlkin mərhələdə Statistika dairəsi-Nərimanov heykəli-Füzuli meydanını əhatə edən 26 hektar ərazidə tıxacların aradan qaldırılması və yol-nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi istiqamətində mühüm işlər görülüb. O cümlədən Füzuli meydanını Nərimanov prospekti ilə birləşdirən yeni prospekt salınıb, yeni yol qovşaqları tikilib və mövcud küçələr genişləndirilib.

Növbəti mərhələdə isə Təzəpir məscidinin qarşısında xüsusi bağın salınması, Füzuli küçəsi boyunca Mərkəzi parkın Nəriman Nərimanov prospektinədək davam etdirilməsi, əhali üçün istirahət-əyləncə guşələrinin yaradılması nəzərdə tutulur.

*Ardı 2-ci səh.*



# Tolerantlığın Azərbaycan modeli

## Prezident İlham Əliyevin uğurlu fəaliyyəti nəticəsində bu model dünyada mükəmməl nümunə kimi qəbul edilir

**16 noyabr tarixi bütün dünyada Beynəlxalq Tolerantlıq Günü kimi qeyd olunur. 1995-ci ildə UNESCO-nun 50 illiyi münasibətilə təsis edilən Beynəlxalq Tolerantlıq Gününün məqsədi bütün dinlərin və xalqların nümayəndələrini bir-birinin dəyərlərinə ehtiram şəraitində yaşamağa çağırışdır. Azərbaycanda da bu əlamətdar tarix qeyd edilir.**

Beynəlxalq Tolerantlıq Gününün təsis olunması xüsusən son onilliklərdə dünyanın müxtəlif yerlərində milli və dini zəmində baş verən qarşıdurmaların daha da dərinləşməsi idi. Bəli, müasir dövrümüzün acı həqiqətlərindən biri ondan ibarətdir ki, heç də hər kəs birgə yaşadığı digər millətin mədəniyyətinə, dininə və digər mənəvi dəyərinə hörmət etmək istəmir. Bunun da nəticəsində toqquşmalara, savaşlara gətirib çıxaran qanlı hadisələr baş verməkdədir.

Azərbaycanda isə vəziyyət fərqlidir. Lakin bu fərqli mühit yeni yaranmayıb. Bu mənada ölkəmizi fərqləndirən cəhət ilk növbədə ondan ibarətdir ki, tarix boyu bu coğrafiyada yaşayan bütün dinlərin və etnosların təmsilçiləri bir-birlərinin mədəni və mənəvi baxışlarına sayğı göstəriblər.

Bu torpaqlarda tarixin heç bir dönəmində dini və ya mili zəmində qarşıdurmalar, azacıq da olsa ziddiyyətlər meydana çıxmayıb. Yəni Azərbaycanda tolerantlıq ənənəsinin əsası hələ qədim dövrlərdən qoyulub. Azərbaycan tarixin ilkin dönəmlərindən başlayaraq hər zaman başqa xalqlara və dinlərə sayğı ilə yanaşıb.

*Ardı 5-ci səh.*





# Tolerantlıq, əslində, həm də azərbaycançılıq deməkdir

## Dünyanın ildə bir dəfə qeyd etdiyi bayramı Azərbaycanda hər gün yaşayırlar

**“Azərbaycanda dinlərarası gözəl görüşləri xatırlamaq istərdim. Burada dinlərin yarada biləcəyi harmoniyanı hiss etdim. Yalnız bir yol var - hər kəsə görə dua etmək və hər kəslə ünsiyyət qurmaq, mili nizəyə çevirmək, nifrət edildiyin zaman sevmək, təhqir edildiyin zaman bağışlamaq, dünya ilə harmoniyada yaşamaq...” Bu fikirləri Roma papası Fransisk bu yaxınlarda Vatikanda Qafqaz dağ yəhudilərindən ibarət nümayəndə heyətini qəbul etdiyi zaman səsləndirib...**

Bəli, bəşəriyyətin ali dini rəhbərlərindən biri məhz Azərbaycanı dünyaya bir örnək, nümunə kimi göstərir...

Bütün dövrlərdə Azərbaycanda dinlərarası heç bir problem yaşanmayıb. Əhalisinin böyük əksəriyyətini müsəlmanlar təşkil edən ölkəmiz tarix boyu digər din və mədəniyyətlərə dözümlü münasibətilə seçilib. Bu yanaşma xalqımızın təbiətindən, insanpərvərliyindən və xoş məramından irəli gəlir. Bu humanist ənənə bu gün də qorunub saxlanılır, respublikada sinaqoq və kilsələr məscidlərlə yanaşı fəaliyyət göstərir, insanlar dini ayinlərini sərbəst yerinə yetirirlər.

Bu gün ölkədə 2250 məscid, 14 kilsə, 7 sinaqoq, 835 dini qurum, 748 ziyarətgah fəaliyyət göstərir. Tam əminliklə deyə bilərik ki, dünyada ikinci belə bir məkan yoxdur və bunu təkcə biz yox, illərdir Azərbaycanda yaşayan xalqların, etnik qrupların, dini icmaların nümayəndələri özləri də vurğulayırlar.

*Ardı 5-ci səh.*

# E.Ə.Əzizovun Bakı Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Eldar Əziz oğlu Əzizov Bakı Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 noyabr 2018-ci il*



# İlham Əliyev Ermənistanın təcridi prosesini uğurla yekunlaşdırır

## Belarus və digər müttəfiqlər Azərbaycanın haqlı mövqeyini daim dəstəkləyəcəklərini nümayiş etdirdilər

**İqtisadi qüdrətini davamlı şəkildə yüksəldən Azərbaycan bu gün mövcud olduğu regionda proseslərin inkişaf axarını müəyyən edən əsas dövlət kimi qəbul olunur.**

Belə vəziyyət öz növbəsində Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçrilən siyasətin böyük uğurunun daha bir göstəricisi qismində çıxış edir. Bu nailiyyətlərdən məharətlə istifadə edən Azərbaycan Prezidenti işğalçı Ermənistana həm diplomatiya müstəvisində böyük zərbələr vurur, həm də bu ölkəni təcrid vəziyyətinə salmaqla onun sosial-iqtisadi çöküşünü sürətləndirir.

Azərbaycan diplomatiyasının beynəlxalq hüquq müstəvisində Ermənistanın işğalçı dövlət olduğunu tam şəkildə sübuta yetirməsi və bu sahə üzrə fəaliyyətini daha da genişləndirməsi qarşı tərəfdə böyük narahatlığa, təşvişə yol açmaqdadır. Bunun daha bir real təsdiqi keçdiyimiz günlərdə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) Astanada baş tutan dövlət başçılarının zirvə toplantısında oldu.

### Azərbaycan Ermənistanı növbəti dəfə “ofsayt”a saldı

Ermənistan üçün növbəti dəfə böyük uğursuzluqla başa çatan KTMT-nin zirvə toplantısında iddialarına və istəklərinə baxmayaraq, təşkilatın baş katibi postu işğalçı ölkədən alındı. Halbuki Ermənistan bu postu 2020-ci ilə qədər saxlamağa çalışırdı.Yekunda belə məlum oldu ki, Kollektiv Təhlükəsizik Müqaviləsi Təşkilatında yer alan ölkələr Ermənistandan daha çox təşkilata üzv olmayan Azərbaycanın mövqeyi ilə hesablaşmağa üstünlük verirlər. Bu hal Qarabağ məsələsi ilə bağlı da özünü qabarıq büruzə verir.

Yaxşı məlumdur ki, Azərbaycanın Ermənistanı çıxmaqla KTMT üzvləri ilə ikitərəfli formatda çox yaxşı münasibətləri, Belarus və Qazaxıstanla isə xüsusi münasibətləri var. Məhz bu münasibətlər sayəsində iki il əvvəl Ermənistanın KTMT baş katibi vəzifəsinə öz nümayəndəsini seçdirməsi xeyli müddət baş tutmamışdı. İndi Astanada baş verənlərdə də Azərbaycan Prezidentinin Qazaxıstan və Belarus liderləri ilə xüsusi münasibətlərinin rolunu inkar etmək olmaz.

*Ardı 6-cı səh.*

# Büdcə müzakirələrinin ilkin mərhələsi başa çatdı

Milli Məclisin noyabrın 15-də keçirilən növbəti plenar iclası “Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il üçün xərclər smetası haqqında” məsələnin müzakirəsi ilə başladı.

Bununla bağlı Milli Məclisin işlər müdiri Firudin Hacıyev məlumat verdi. Qeyd etdi ki, Azərbaycan Respublikasının 2019-cu il üçün dövlət büdcəsində Milli Məclisin və onun aparatının saxlanması üçün 27 milyon 69 min 600 manat vəsait nəzərdə tutulmuşdur. Xərclər smetasının ümumi dəyərinin 68,5 faizini əməkhaqqı fondu və əməkhaqqı ilə əlaqədar ayırmalar təşkil edir. Diqqətə çatdırıldı ki, qanunvericiliyə edilmiş dəyişikliyə əsasən qanun layihələri 3 oxunuşda müzakirə edildiyindən Milli Məclisin iclaslarının sayı çoxalıb. Bununla əlaqədar dəftərxana, mətbəə və avadanlıqların alınması xərclərinin artırılmasına, Milli Məclisin inzibati binasında 1994-cü ildə xidməti istifadə üçün quraşdırılmış operativ rabitə ATS-nin, həmçinin informasiya texnologiyalarının inkişafı ilə əlaqədar inzibati binada 2 ədəd data məlumat bazası servis otağının yenidən qurulmasına, inzibati binaların isidilməsini və soyudulmasını həyata keçirmək üçün 2006-cı ildə quraşdırılmış avadanlıqların bəzi sıradan çıxmış ehtiyat hissələrinin yenisi ilə əvəz edilməsinə əlavə vəsait tələb olunur.

*Ardı 3-cü səh.*





# İlham Əliyevin növbəti abadlıq-quruculuq layihəsi

*Əvvəli 1-ci səh.*

Bununla da Bakı şəhərində yaşıllıq zonalarının artırılması və şəhərin ekoloji vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində növbəti mühüm addım atılmış olacaq.

Son illərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə paytaxtımızda həyata keçirilən abadlıq-quruculuq işləri, şəhər sakinlərinin və ölkəmizə gələn turistlərin istirahəti üçün ən müasir parkların və yeni-yeni yaşıllıq sahələrinin salınması, paytaxtın qədim tarixi memarlıq nümunələrinin bərpası və yeni, müasir binaların tikilib istifadəyə verilməsi nəticəsində Bakı dünyanın ən gözəl şəhərlərindən birinə çevrilib. Bu istiqamətdə aparılan işlərin miqyası getdikcə daha da genişlənir. Paytaxtımızda yeni çoxmərtəbəli müasir binaların və digər sosial obyektlərin inşası ilə yanaşı, şəhərin inkişaf tempinə uyğun



gəlməyən, paytaxtımızın müasirlik ansamblını pozan tikililərin sökülməsi ilə bağlı da mühüm layihələr icra edilib. Həyata keçirilən bu cür layihələr arasında keçmişdə "Sovetski" adlanan məhəllənin sökülməsi böyük əhəmiyyəti ilə seçilir. Bu məhəllənin sökülməsi Bakının daha da müasirləşdirilməsi istiqamətində görülən işlərin davamı olmaqla, şəhərin Baş Planının icrasının təmin olunmasına, habelə paytaxtda yol-nəqliyyat infrastrukturunun yaxşılaşdırılmasına da böyük töhfə verdi. Bu ərazidə salınan yeni yollar Bakıda nəqliyyatın rahat və təhlükəsiz hərəkətinin təmin edilməsində, şəhərdə tıxacların azaldılmasında mühüm rol oynadı. Bu layihənin icrası həm də paytaxt sakinlərinin və Bakıya gələn çoxsaylı turistlərin mədəni istirahəti üçün müvafiq şəraitin yaradılması və şəhərin ekoloji durumunun yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin də davamlı olduğunu bir daha nümayiş etdirir.

Aparılan işlərin gedişi ilə tanış olan dövlət başçısı müvafiq tapşırıq və tövsiyələrini verdi.

# Endrü PARSONS: "Paralimpiyaçılara göstərilən böyük diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarıq"



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Beynəlxalq Paralimpiya Komitəsinin prezidenti Endrü Parsonsu qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Beynəlxalq Paralimpiya Komitəsinin prezidenti Endrü Parsonsun Azərbaycana səfərinin onun təmsil etdiyi qurumla ölkəmiz arasında əməkdaşlığın perspektivlərini müzakirə etmək üçün yaxşı imkan yaratdığını dedi. Prezident İlham Əliyev Azərbaycanda idmana, o cümlədən paralimpiyaya yüksək dövlət qayğısı göstərildiyini qeyd edərək bildirdi ki, ölkəmizdə aparılan idman siyasəti Azərbaycanın ictimai həyatında böyük rol oynayır. Azərbaycanda paralimpiyaçılara göstərilən xüsusi diqqət və qayğıdan danışan dövlət başçısı bildirdi ki, paralimpiyaçılarımız Yay Paralimpiya və eləcə də Avropa Oyunlarında yaxşı nəticələr göstərmişlər.

Prezident İlham Əliyev Endrü Parsonsun Ümumdünya Antidopinq Agentliyinin Təsisçilər Şurasının Bakıda keçirilən iclasında iştirakının önəmini qeyd etdi və ölkəmizin bu təşkilatla da yaxşı əməkdaşlıq həyata keçirdiyini dedi.

Beynəlxalq Paralimpiya Komitəsinin prezidenti Endrü Parsons Azərbaycana üçüncü dəfə səfər etdiyini, ötən dövr ərzində ölkəmizdə böyük inkişaf proseslərinin getdiyinin şahidi olduğunu vurğuladı. O, Prezident İlham Əliyevin idmana, o cümlədən paralimpiyaçılara böyük diqqət və qayğı göstərdiyini qeyd etdi və bu münasibətlə beynəlxalq paralimpiya hərəkatı adından dövlətimizin başçısına minnətdarlığını bildirdi. Endrü Parsons Azərbaycanda paralimpiyanın inkişafının bir nümunə olduğunu vurğuladı.

# Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın 2019-cu ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıq bu gün dünyanı narahat edən əsas problemlərdən biridir. Dünya dövlətləri narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə üsullarını və narkomanlığın müalicəsi metodlarını təkmilləşdirirlər.

Azərbaycan Respublikası müstəqilliyini bərpa edəndən bəri dövlət quruculuğu, siyasi, iqtisadi, sosial və digər sahələrdə həyata keçirilən islahatlar nəticəsində narkotiklərin qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizə üzrə beynəlxalq standartlara uyğun institusional və qanunvericilik tədbirləri həyata keçirilmiş, beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq münasibətləri qurulmuşdur.

Narkotiklərlə Mübarizə üzrə Beynəlxalq Konfransın qərarına əsasən, Azərbaycan 2019-cu ildə bu mötəbər qurumun növbəti konfransına evsahibliyi edəcəkdir. Belə bir qərarın qəbul olunması ölkəmiz üçün olduqca mühümdür və beynəlxalq təşkilatlarla tərəfdaşlıq münasibətlərinin yüksək səviyyədə olduğunu göstərir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın 2019-cu il 16-18 aprel tarixlərində Bakı şəhərində keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın 2019-cu il 16-18 aprel tarixlərində Bakı şəhərində keçirilməsi ilə əlaqədar aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılsın:

**Təşkilat Komitəsinin sədri**

Əli Həsənov - Azərbaycan Respublikası Baş nazirinin müavini

**Təşkilat Komitəsi sədrinin müavini**

Ramil Usubov - Azərbaycan Respublikasının daxili işlər naziri

**Təşkilat Komitəsinin üzvləri**

Elmar Məmmədyarov - Azərbaycan Respublikasının xarici işlər naziri
Samir Şərifov - Azərbaycan Respublikasının maliyyə naziri
Oqtay Şirəliyev - Azərbaycan Respublikasının səhiyyə naziri
Fikrət Məmmədov - Azərbaycan Respublikasının ədliyyə naziri
Ceyhun Bayramov - Azərbaycan Respublikasının təhsil naziri
Azad Rəhimov - Azərbaycan Respublikasının gənclər və idman naziri
Əbülfəs Qarayev - Azərbaycan Respublikasının mədəniyyət naziri
Zakir Qaralov - Azərbaycan Respublikasının baş prokuroru
Səfər Mehdiyev - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri
Mədət Quliyev - Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi
Elçin Quliyev - Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi
Nuşirəvan Məhərrəmov - Azərbaycan Respublikası Milli Televiziya və Radio Şurasının sədri
Azay Quliyev - Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri, Azərbaycan Respublikası Milli Məclisinin deputatı
Fidumə Hüseynova - Bakı Şəhər İcra Hakimiyyəti başçısının müavini
Rauf Zeyni - Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti

2. Bu sərəncamın 1-ci hissəsi ilə yaradılan Təşkilat Komitəsi 2019-cu il 16-18 aprel tarixlərində Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransın Bakı şəhərində keçirilməsinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 noyabr 2018-ci il*

# Böyük Azərbaycan şairi İmadəddin Nəsiminin 650 illik yubileyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2019-cu ildə böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi tamam olur.

İmadəddin Nəsimi Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə bəxş etdiyi qüdrətli söz ustalarındandır. O, Şərqin zəngin mədəni-mənəvi sərvətləri üzərində ucalmış və bədii söz sənətinin son dərəcə qiymətli incilərini meydana gətirmişdir. Mütəfəkkir şairin dərin poetik fikirlərlə fəlsəfi görüşlərin vəhdətində olub, dövrün elmi-fəlsəfi düşüncəsinin aydın ifadəçisinə çevrilmiş müstəsna əhəmiyyətli ədəbi irsi qədim köklərə və çoxəsrlik ənənələrə malik Azərbaycan ədəbiyyatı tarixində xüsusi mərhələ təşkil edir.

Nəsimi dünya poeziyasının ən kamil nümunələri sırasında diqqətəlayiq yer tutan əsərlərində daim insanın əzəmətini, insani məhəbbəti və şəxsiyyətin azadlığını tərənnüm etmişdir. Anadilli şeirin humanist ideyalarla, yeni məzmun, deyim tərzi və bədii lövhələrlə daha da zənginləşməsində unudulmaz şairin misilsiz xidmətləri vardır. Nəsiminin mənbəyini xalq ruhundan almış parlaq üslubu orta əsrlər Azərbaycan dilinin məna imkanlarını bütün dolğunluğu və rəngarəngliyi ilə əks etdirir. Sənətkarın yaradıcılığı bir sıra xalqların bədii-ictimai fikrinin inkişafına qüvvətli təsir göstərmişdir.

Nəsimi irsinin Azərbaycan xalqının mənəviyyat xəzinəsində layiqli yerini tutması ötən əsrin 70-ci illərində öz geniş fəaliyyəti sayəsində tarixi-mədəni dəyərlərimizə münasibətdə əsaslı dönüş yaratmış ümummilli lider Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır. Məhz ulu öndərin təşəbbüsü ilə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən ilk dəfə Nəsiminin 600 illik yubileyi YUNESKO-nun tədbirləri siyahısına daxil edilmiş və 1973-cü ildə beynəlxalq miqyasda qeyd olunmuşdur.

Həmin dövrdən etibarən Nəsimi irsinin və bütövlükdə klassik Azərbaycan mədəniyyətinin daha əhatəli araşdırılması istiqamətində mühüm addımlar atılmışdır. Nəsiminin yaradıcılığı artıq milli-mənəvi varlığımızın ayrılmaz tərkib hissəsidir.

Azərbaycan ədəbiyyatı və incəsənətində Nəsiminin yaddaqalan obrazı yaradılmış, Bakının mərkəzində şairin əzəmətli heykəli ucaldılmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının Dilçilik İnstitutu Nəsiminin adını daşıyır.

2017-ci ilin may ayında Parisdə YUNESKO-nun baş qərargahında Nəsiminin vəfatının 600 illiyinin qeyd edilməsi və 2018-ci ilin sentyabr ayında ölkəmizdə Nəsimi şeir, incəsənət və mənəviyyat festivalının təntənəli şəkildə keçirilməsi ölməz şairin xatirəsinə dərin ehtiramın ifadəsi hesab oluna bilər.

İmadəddin Nəsiminin adı həqiqət naminə, fikir azadlığı yolunda qəhrəmanlığın rəmzi kimi əbədiləşib, əsrlərdən bəri Şərq xalqlarının yaddaşında yaşamaqdadır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin anadan olmasının 650 illik yubileyinin yüksək səviyyədə keçirilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Böyük şair və mütəfəkkir İmadəddin Nəsiminin 650 illik yubileyi Azərbaycan Respublikasında dövlət səviyyəsində geniş qeyd edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş tədbirlər planının hazırlanıb həyata keçirilməsini təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 noyabr 2018-ci il*

# Qusar rayonunun Qusar-Əniq-Laza avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. İyirmi səkkiz min nəfər əhalinin yaşadığı 12 yaşayış məntəqəsini birləşdirən Qusar-Əniq-Laza avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 6,6 milyon (altı milyon altı yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 noyabr 2018-ci il*

# Azərbaycan Respublikasında avtomobil yollarının tikintisi və istismarı sahəsində fərqlənən bir qrup şəxsin təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan avtomobil yollarının 100 illiyi münasibətilə və Azərbaycanda yol-nəqliyyat infrastrukturunun inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**3-cü dərəcəli "Əmək" ordeni ilə**

Qasımov Əflatun Allahyar oğlu
Quliyev Hüsnü Ələkbər oğlu
Məmmədov Aqibət İdris oğlu

**"Tərəqqi" medalı ilə**

Əliyev Amil Məhəmməd oğlu
Əmirov Çingiz Aydın oğlu
Gülgəzov Fərhad Aşır oğlu
Həmzəyev Müseyib Mürsəl oğlu
Həsənov Zaur Mail oğlu
İbrahimov Valeh Firudin oğlu
Qarayev Coşqun Əlövsət oğlu
Mirzəbəyov Əhməd Əzizxan oğlu
Musayev Fazil Kamal oğlu
Səfərov Afiq Surxay oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 noyabr 2018-ci il*

# Ş.İ.Astanova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan avtomobil yollarının 100 illiyi münasibətilə və Azərbaycanda yol-nəqliyyat infrastrukturunun inkişafında xidmətlərinə görə Şükür İsmayıl oğlu Astanova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 noyabr 2018-ci il*

# Ə.İ.Qocayevə "Əməkdar mühəndis" fəxri adı verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan avtomobil yollarının 100 illiyi münasibətilə və Azərbaycanda yol-nəqliyyat infrastrukturunun inkişafında xidmətlərinə görə Əvəz İlyas oğlu Qocayevə "Əməkdar mühəndis" fəxri adı verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 noyabr 2018-ci il*

# A.M.Məhərrəmovun Bakı Dövlət Universitetinin rektoru vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Abel Məmmədəli oğlu Məhərrəmov Bakı Dövlət Universitetinin rektoru vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 noyabr 2018-ci il*

# Azərbaycan Respublikası Dövlət Bayrağının təsvirinin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikasının Konstitusiya Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 23-cü maddəsinin III hissəsini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikası Dövlət Bayrağının təsviri" təsdiq edilsin *(əlavə olunur)*.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 noyabr 2018-ci il*

Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli Konstitusiya Qanunu ilə təsdiq edilmişdir

## Azərbaycan Respublikası Dövlət Bayrağının təsviri

**Maddə 1. Ümumi təsvir**

1.1. Azərbaycan Respublikasının Dövlət Bayrağı eni bərabər olan üç üfüqi zolaqdan ibarət düzbucaqlı şəklindədir. Yuxarı zolaq mavi rəngdə, orta zolaq qırmızı rəngdə, aşağı zolaq yaşıl rəngdədir. Düzbucaqlının eninin uzunluğuna nisbəti 1:2-dir.

1.2. Qırmızı zolağın ortasında aypara və səkkizguşəli ulduz təsviri vardır. Aypara və ulduz ağ rəngdədir. Ayparanın ucları ondan sağda yerləşən ulduza istiqamətlənmişdir.

**Maddə 2. Rəngli və sxematik təsvir**

2.1. Azərbaycan Respublikasının Dövlət Bayrağı, ölçüsündən asılı olmayaraq, onun bu Təsvirə əlavə edilən rəngli və sxematik təsvirlərinə uyğun gəlməlidir.

2.2. Azərbaycan Respublikası Dövlət Bayrağının sənaye üsulu ilə hazırlanması və rəngli təsvirinin çapı zamanı onun mavi rənginin "Panton" rənglər kataloqunun Pantone 306C rəng koduna, qırmızı rənginin Pantone Red 032C rəng koduna, yaşıl rənginin Pantone 362C rəng koduna uyğunluğu təmin edilir.

"Azərbaycan Respublikası Dövlət Bayrağının təsviri"nə əlavə

## Azərbaycan Respublikası Dövlət Bayrağının rəngli təsviri



"Azərbaycan Respublikası Dövlət Bayrağının təsviri"nə əlavə

## Azərbaycan Respublikası Dövlət Bayrağının sxematik təsviri



| Azərbaycan Respublikası Dövlət Bayrağının ölçülərinin nisbəti | |
|---|---|
| A: Bayrağın eni | 1 A |
| B: Bayrağın uzunluğu | 2 A |
| $A_1$: Bayrağın mavi zolağının eni | 1/3 A |
| $A_2$: Bayrağın qırmızı zolağının eni | 1/3 A |
| $A_3$: Bayrağın yaşıl zolağının eni | 1/3 A |
| C: Bayrağın sol kənarından ayparanın daxili çevrəsinin mərkəzinədək olan məsafə | 0,5 B |
| D: Ayparanın xarici çevrəsinin diametri | 0,286 A |
| $D_1$: Ayparanın daxili çevrəsinin diametri | 0,220 A |
| $D_2$: Ulduzun xarici çevrəsinin diametri | 0,166 A |
| $D_3$: Ulduzun daxili çevrəsinin diametri | 0,078 A |
| F: Ayparanın daxili və xarici çevrələrinin mərkəzləri arasındakı məsafə | 0,035 A |
| G: Ulduz çevrəsinin mərkəzi ilə ayparanın xarici çevrəsinin mərkəzi arasındakı məsafə | 0,140 A |

# "Azərbaycan Respublikası Dövlət Bayrağının təsvirinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1331-VKQ nömrəli Konstitusiya Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Dövlət Bayrağının təsvirinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1331-VKQ nömrəli Konstitusiya Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin konstitusiya qanununun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikası Dövlət Bayrağının təsvirinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin konstitusiya qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin konstitusiya qanununa uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin konstitusiya qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların Azərbaycan Respublikası Dövlət Bayrağının təsvirinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 noyabr 2018-ci il*

# Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirinin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikasının Konstitusiya Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 23-cü maddəsinin III hissəsini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri" təsdiq edilsin *(əlavə olunur).*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 noyabr 2018-ci il*

Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli Konstitusiya Qanunu ilə təsdiq edilmişdir

## Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri

**Maddə 1. Ümumi təsvir**

1.1. Azərbaycan Respublikasının Dövlət Gerbi iki palıd budağından və iki sünbüldən ibarət qövsvarı çələngin üzərində yerləşən şərq qalxanı şəklindədir.

1.2. Qalxanın üzərində Azərbaycan Respublikası Dövlət Bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində alov təsviri vardır. Ulduz ağ, alov qırmızı, palıd budaqları yaşıl, sünbüllər sarı, qalxanın və ulduzun sağanaqları, habelə qalxanın düymələri (8 ədəd) və palıd qozaları (5 ədəd) qızılı rəngdədir.

**Maddə 2. Rəngli, rəngsiz və sxematik təsvir**

2.1. Azərbaycan Respublikasının Dövlət Gerbi, ölçüsündən asılı olmayaraq, onun bu təsvirə əlavə edilən rəngli, rəngsiz və sxematik təsvirlərinə uyğun gəlməlidir.

2.2. Azərbaycan Respublikası Dövlət Gerbinin sənaye üsulu ilə hazırlanması və rəngli təsvirinin çapı zamanı alovun qırmızı rənginin "Panton" rənglər kataloqunun Pantone Red 032C rəng koduna, palıd budaqlarının yaşıl rənginin Pantone 7729C rəng koduna, sünbüllərin sarı rənginin Pantone 7548C rəng koduna, qalxanın və ulduzun sağanaqlarının, qalxanın düymələrinin və palıd qozalarının qızılı rənginin Pantone 111C rəng koduna uyğunluğu təmin edilir.

"Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri"nə əlavə

## Azərbaycan Respublikası Dövlət Gerbinin rəngli təsviri



"Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri"nə əlavə

## Azərbaycan Respublikası Dövlət Gerbinin rəngsiz təsviri



"Azərbaycan Respublikası Dövlət Gerbinin təsviri"nə əlavə

## Azərbaycan Respublikası Dövlət Gerbinin sxematik təsviri



| Azərbaycan Respublikası Dövlət Gerbinin ölçülərinin nisbəti | |
|---|---|
| D: Qalxanın dairəsinin diametri | 1 D |
| A: Gerbin ümumi uzunluğu | 1,190 D |
| B: Gerbin ümumi eni | 1,078 D |
| C: Palıd-sünbül çələnginin eni | 0,562 D |
| $D_1$: Ulduzun xarici çevrəsinin diametri | 0,928 D |
| $D_2$: Ulduzun daxili çevrəsinin diametri | 0,453 D |
| $D_3$: Qalxanın düymələrinin diametri | 0,038 D |
| $E_1$: Bayrağın mavi rəngini əks etdirən zolağın eni | 0,072 D |
| $E_2$: Bayrağın qırmızı rəngini əks etdirən zolağın eni | 0,072 D |
| $E_3$: Bayrağın yaşıl rəngini əks etdirən zolağın eni | 0,072 D |
| F: Alovun uzunluğu | 0,365 D |
| G: Alovun eni | 0,230 D |
| H: Səkkizguşəli ulduzun kontur xəttinin qalınlığı | 0,017 D |
| J: Qalxanın xarici kontur xəttinin qalınlığı | 0,036 D |

# "Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1332-VKQ nömrəli Konstitusiya Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1332-VKQ nömrəli Konstitusiya Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin konstitusiya qanununun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin konstitusiya qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin konstitusiya qanununa uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin konstitusiya qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikası Dövlət Gerbinin təsvirinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 noyabr 2018-ci il*

# Azərbaycan Respublikası Dövlət Himninin musiqisinin və mətninin təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikasının Konstitusiya Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 23-cü maddəsinin III hissəsini rəhbər tutaraq **qərara alır:**

Musiqisi Üzeyir Hacıbəyliyə, sözləri Əhməd Cavada məxsus olan "Azərbaycan marşı" Azərbaycan Respublikasının Dövlət Himni kimi təsdiq edilsin (əlavə olunur).

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 noyabr 2018-ci il*

Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli Konstitusiya Qanunu ilə təsdiq edilmişdir

## Azərbaycan Respublikası Dövlət Himninin mətni

## AZƏRBAYCAN MARŞI

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

# "Azərbaycan Respublikası Dövlət Himninin musiqisinin və mətninin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1333-VKQ nömrəli Konstitusiya Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Dövlət Himninin musiqisinin və mətninin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli 1333-VKQ nömrəli Konstitusiya Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin konstitusiya qanununun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikası Dövlət Himninin musiqisinin və mətninin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin konstitusiya qanununa uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin konstitusiya qanununa uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin konstitusiya qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikası Dövlət Himninin musiqisinin və mətninin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 14 noyabr 2018-ci il*

Milli Məclisin iclasında

# Büdcə müzakirələrinin ilkin mərhələsi başa çatdı






















*Əvvəli 1-ci səh.*

Firudin Hacıyev bu məqsədlə xərclər smetasının bəzi paraqrafları üzrə əlavə vəsait ayrılmasına kömək göstərilməsini xahiş etdi.

Müzakirələr zamanı deputatlardan Tahir Kərimli, Naqif Həmzəyev, Qüdrət Həsənquliyev, Zahid Oruc, Fəzail Ağamalı, Fazil Mustafa, Qənirə Paşayeva layihə ətrafında fikirlərini bildirdilər. Deputatlar Milli Məclisin işçilərinə mənzil tikintisi üçün vəsait ayrılması, parlament televiziyasının yaradılması, elektron sənəd dövriyyəsinin sürətləndirilməsi, ezamiyyə xərclərinin artırılması və qanunverici orqanın fəaliyyətinə aid olan digər məsələlərlə bağlı təkliflərlə çıxış etdilər.

Komitə sədri Siyavuş Novruzov dedi ki, parlamentin adından hazırlanan sənədlərlə bağlı ayrıca şöbə yaradılmalıdır. Milli Məclisdə sosioloji sorğu mərkəzinin də yaradılmasını təklif edən Siyavuş Novruzov əvvəllər belə bir şöbənin fəaliyyət göstərdiyini qeyd etdi: "Prezident İlham Əliyev Milli Məclisin fəaliyyətini yüksək qiymətləndirir. Amma biz fəaliyyətimizlə bağlı ictimaiyyətin münasibətini bilmirik. Heç olmasa ayda 1 dəfə mərkəz tərəfindən sorğu keçirilməli, ictimaiyyətin fikri öyrənilməlidir. Dünya təcrübəsində bütün parlamentlərdə bu cür mərkəzlər fəaliyyət göstərir, təhlillər həyata keçirilir".

Daha sonra "Azərbaycan Respublikası Hesablama Palatasının 2019-cu il üçün xərclər smetası haqqında" məsələ müzakirəyə çıxarıldı. Layihə ilə bağlı Hesablama Palatasının sədri Vüqar Gülməmmədov məlumat verdi. Bildirdi ki, 2019-cu ildə Hesablama Palatasının saxlanılması üçün 4 milyon 368 min 941 manat vəsait planlaşdırılır. Bu vəsait 2018-ci ilin proqnoz göstəricisindən təqribən 6,5 faiz çoxdur. Artım əsasən bəzi yardımçı dövlət qulluqçularının inzibati təsnifat üzrə yerdəyişməsindən irəli gəlir və yanacağın qiyməti ilə bağlıdır. Palata üzrə xərclər smetasının ümumi məbləğinin 84,3 faizi əməyin ödənilməsi ilə bağlıdır.

Bununla da iclasda 2019-cu ilin dövlət büdcəsi zərfinə daxil olan məsələlərin müzakirəsi başa çatdı. Hökumətə vaxt verildiyini deyən Milli Məclisin Sədri Oqtay Əsədov bununla bağlı növbəti iclasın noyabrın 23-də, son iclasın isə noyabrın 30-da keçiriləcəyini dedi.

Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında" (ikinci oxunuş), "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə" (ikinci oxunuş) və "Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" (ikinci oxunuş) qanun layihələrini müzakirəyə təqdim etdi.

Qeyd etdi ki, Konstitusiyaya edilmiş dəyişiklikdən və "Normativ hüquqi aktlar haqqında" qanunun tələblərindən irəli gələrək Hüquq siyasəti və dövlət quruculuğu komitəsinə Milli Məclisin Daxili Nizamnaməsində dəyişikliklər edilməsi ilə bağlı qanun layihəsi hazırlamaq tövsiyə olunub. Qarşıya qoyulmuş vəzifə nizamnaməni Konstitusiyaya və "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununa uyğundaşdırmaqdan ibarət olub.

Müzakirələr zamanı deputatlardan Qüdrət Həsənquliyev, Çingiz Qənizadə, Fərəc Quliyev, İlham Əliyev, Əflatun Amaşov, Fazil Mustafa, Siyavuş Novruzov və Tahir Rzayev təqdim olunan layihələrlə bağlı fikirlərini bildirdilər. Yekunda qanun layihələri ikinci oxunuşda qəbul edildi.

İclasda son olaraq "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsi müzakirəyə çıxarıldı. Layihə barədə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verdi. Qeyd etdi ki, dəyişikliklər qanunvericiliyin təkmilləşdirilməsi ilə əlaqədardır. Dəyişikliklər notarial hərəkətlərlə bağlı yeni standartların tətbiqinə rəvac verəcək. Qısa müzakirədən sonra qanun layihəsi təsdiq olundu.

***Rəşad CƏFƏRLİ,***
***Fərman BAĞIROV (foto),***
***"Azərbaycan"***

Azərbaycan Respublikasının 2018-ci il 2 noyabr tarixli Konstitusiya Qanunu ilə təsdiq edilmişdir

## Azərbaycan Respublikası Dövlət Himninin musiqisi (partiturası)

**musiqi:** Üzeyir Hacıbəyli, **söz:** Əhməd Cavad



16 noyabr UNESCO Günüdür

# Əməkdaşlığın yeni üfüqləri

*Mehriban xanım Əliyevanın Azərbaycanın bu nüfuzlu təşkilatla münasibətlərinin inkişafında böyük xidmətləri var*



Hər bir ölkə qədimliyini, bəşər sivilizasiyasının formalaşmasındakı rolunu sübuta yetirmək, onu dünyaya təqdim etmək üçün mədəni irs nümunələrindən faydalanır. Ona görə də bütün tarixi dövrlərdə maddi-mədəniyyət abidələrinin mühafizəsinə xüsusi diqqət yetirilib.

Dövlət müstəqilliyinin bərpasından sonra bir sıra sahələrdə olduğu kimi, maddi-mədəniyyət nümunələrimizin qorunub saxlanması və dünyaya öz adı və ünvanı ilə təqdim olunması istiqamətində aparılan dövlət siyasətinin uğurlu nəticəsidir ki, bir sıra sərvətlərimiz UNESCO-nun Maddi-Mədəni İrs siyahısına salınıb.

Azərbaycanın da üzv olduğu nüfuzlu beynəlxalq qurumlardan, BMT-nin humanitar sahə üzrə ixtisaslaşmış təşkilatlarından biri də UNESCO-dur. Onun yaranması haqqında Nizamnamə 1945-ci il noyabrın 16-da Londonda imzalanıb. 1946-cı il noyabrın 4-də isə 20 üzv dövlətdən ibarət təşkilat rəsmi fəaliyyətə başlayıb. 193 dövləti humanitar məsələlərdə birləşdirən UNESCO-nun Azərbaycanla əlaqələri xüsusi diqqət mərkəzində saxlanır. Bu münasibətin inkişafında ən mühüm addım ümummilli lider Heydər Əliyevin 1993-cü ilin dekabrında Fransaya ilk rəsmi səfəri zamanı qurumun Parisdəki mənzil-qərargahında ozamankı baş direktor Federiko Mayorla görüşü zamanı atılıb. Ulu öndərin 21 fevral 1994-cü il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının UNESCO üzrə Milli Komissiyası yaradılıb. 2005-ci il sentyabrın 15-də Azərbaycan Prezidenti İlham Əliyev Milli Komissiya ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.

Təsadüfi deyil ki, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva ənənəvi musiqinin, ədəbiyyat və poeziyanın inkişafına verdiyi töhfələrə, musiqi təhsili və dünya mədəniyyətlərinin mübadiləsi sahəsindəki xidmətlərinə və UNESCO-nun ideyalarına sadiqliyinə görə 2004-cü ilin sentyabrında bu təşkilatın xoşməramlı səfiri adına layiq görülüb.

Mehriban xanım Əliyevanın Azərbaycan-UNESCO münasibətlərinin inkişafında və möhkəmləndirilməsindəki xidmətləri danılmazdır. Ölkəmizin mədəni irsinin təbliği, onun milli və regional səviyyələrdə mühafizəsinin təmin olunması sahəsində gördüyü əvəzsiz işlər belə deməyə əsas verir. Mehriban xanım Əliyevanın təşəbbüslərinin nəticəsi olaraq UNESCO ilə elm, təhsil, mədəniyyət sahəsində əməkdaşlığın inkişafı üçün mühüm sənədlər imzalanıb, tədbirlər həyata keçirilib. Məhz bu humanitar siyasətin bəhrəsidir ki, Azərbaycan muğamı UNESCO tərəfindən bəşəriyyətin qeyri-maddi irsinin şah əsəri elan edilib, Qobustan Dövlət Tarixi-Bədii Qoruğu ümumdünya irs siyahısına salınıb, İçərişəhər Qoruğu UNESCO-nun təhlükədə olan ümumdünya irsi siyahısından çıxarılıb. Bütün bunlara onu da əlavə etməliyik ki, aşıq sənəti və Novruz bayramı UNESCO-nun qeyri-maddi mədəni irs siyahısında özünə yer alıb.

Mədəni Dəyərlərin Mənsub Olduqları Ölkələrə Qaytarılmasının Təşviqi və ya Qanunsuz Mənimsəmə halında Geri Qaytarılması üzrə UNESCO-nun Hökumətlərarası Komitəsinin 17-ci sessiyasında Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi təcavüzkar siyasətinin yalnız ərazi iddiaları ilə məhdudlaşmadığı, işğal olunmuş torpaqlarda yüz mindən artıq dəyərli eksponatın, zəngin mədəniyyət nümunələrinin oğurlanması və dağıntılara məruz qalması haqqında əsaslandırılmış məlumatlar verilib. Həmçinin həmin ərazilərdə qeyri-qanuni arxeoloji qazıntıların aparılması və aşkar edilmiş obyektlərin mənimsənilməsi halları bir daha diqqətə çatdırılıb.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, "Azərbaycan Mədəniyyətinin Dostları Fondu"nun rəhbəri, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə xalqımızın ənənəvi klassik musiqisini dünya miqyasında tanıtmaq məqsədilə Bakıda Beynəlxalq Muğam Mərkəzi tikilərək istifadəyə verilib. 2009-cu ilin martında Azərbaycanda I Beynəlxalq Muğam festivalı keçirilib. UNESCO-nun ozamankı baş direktoru Koişiro Matsura bu münasibətlə ölkəmizə səfər edib. Qonaq səfəri çərçivəsində Bakıda Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılan Müasir İncəsənət Muzeyinin açılış mərasiminə və Novruz bayramı şənliklərinə də qatılıb.

UNESCO ilə Azərbaycan arasında elm, təhsil, mədəniyyət sahəsində əməkdaşlığın genişləndirilməsi üçün Bakıda bir sıra beynəlxalq tədbirlər keçirilib. Dünyada savadlılığın dəstəklənməsi üzrə UNESCO-nun regional konfransları silsiləsindən 2008-ci ilin may-iyun aylarında Azərbaycanda keçirilən "Avropada subregional çərçivədə savadlılıq problemlərinə baxış: tərəfdaşlıq əlaqələrinin qurulması və innovativ yanaşmaların tətbiqinə dəstək", "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" və digər tədbirlər bu xoş mərama xidmət edib.

Azərbaycanın görkəmli şəxsiyyətlərinin yubileylərinin UNESCO çərçivəsində qeyd edilməsi də bu nüfuzlu beynəlxalq təşkilatla əlaqələrin yüksək səviyyəsinin göstəricisidir. "Kitabi-Dədə Qorqud" dastanının 1300, Məhsəti Gəncəvinin 900, M.Füzulinin 500, dünya şöhrətli alim, akademik Yusif Məmmədəliyevin 100, "Leyli və Məcnun" operasının ilk tamaşasının 100, görkəmli yazıçı Mir Cəlal Paşayevin 100 illik yubileylərinin, habelə bu sıradan olan digər tədbirlər UNESCO çərçivəsində böyük təntənə ilə qeyd edilib.

UNESCO-nun 60 illik yubileyi münasibətilə qurumun baş qərargahında keçirilən "Sivilizasiyalararası dialoq" çərçivəsində "Azərbaycan - sivilizasiyaların və mədəniyyətlərin kəsişdiyi yer" adlı tədbir də ölkəmiz haqqında həqiqətlərin yayılması baxımından böyük önəm daşıyıb.

2008-ci ilin may ayında yaddaqalan daha bir tədbir də gerçəkləşib: Dövlət Gənclər Simfonik Orkestri və Uşaq xoru - "Azərbaycanın xoşməramlı mələkləri" UNESCO-nun iqamətgahını fəth ediblər. Həmin konsertdə Azərbaycanın gənc istedadları qurumun 20-dən artıq xoşməramlı səfirinə unudulmaz anlar yaşatmaqla, xalqımızın mədəniyyətinin zənginliyini, möhtəşəmliyini bir daha nümayiş etdiriblər.

2009-cu il noyabrın 17-də UNESCO-nun mənzil qərargahında keçirilən "UNESCO-da Azərbaycan günü" də mədəniyyətimizin təbliği baxımından daha bir addım idi. 2010-cu ilin yayında Qəbələdə keçirilən II Beynəlxalq Musiqi Festivalı da UNESCO-Azərbaycan əlaqələrinin yüksək səviyyədə olduğunu bir daha təsdiqləyirdi. Belə ki, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın dəvəti ilə UNESCO-nun baş direktoru İrina Bokova ölkəmizdə səfərdə olub. Qəbələdə keçirilən II Beynəlxalq Muğam Festivalında UNESCO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevaya Motsart medalını da məhz həmin festivalda təqdim edib.

UNESCO ilə əməkdaşlıq yalnız ikitərəfli əlaqələr üzərində qurulmayıb. UNESCO çoxtərəfli beynəlxalq təşkilat olduğu üçün onun vasitəsilə müxtəlif ölkələr arasında qarşılıqlı əməkdaşlıq üçün şərait yaranıb. Bunun nəticəsidir ki, Azərbaycan təhsil, elm, mədəniyyət sahəsində də müxtəlif ölkələrlə çox vaxt UNESCO vasitəsilə geniş əlaqələr yaradıb.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# MDB iştirakçısı olan dövlətlərin sərhədlərində vəziyyət müzakirə edilmişdir




Noyabr ayının 14-də Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Qırğızıstan Respublikasının Bişkek şəhərində Müstəqil Dövlətlər Birliyinin Sərhəd Qoşunlarının Komandanları Şurasının (SQKŞ) 80-ci iclasında müşahidəçi qismində iştirak etmişdir.

Tədbirdə Azərbaycan, Belarus, Qazaxıstan, Özbəkistan, Rusiya, Tacikistan, Ermənistan və Türkmənistanın sərhəd xidmətləri, SQKŞ-nin Əlaqələndirici Xidməti, MDB-nin İcraiyyə Komitəsi, MDB-nin Antiterror Mərkəzi, Sərhəd xidməti veteranlarının Beynəlxalq İctimai Birliklər İttifaqının Əlaqələndirici Şurasının nümayəndə heyətləri iştirak etmişlər.

İclas zamanı MDB iştirakçısı olan dövlətlərin sərhədlərində vəziyyət, onun inkişaf tendensiyaları və sərhəd təhlükəsizliyinin təmin edilməsi barədə fikir mübadiləsi aparılmış, sərhədlərdə baş verən böhran hallarının tənzimlənməsi üzrə birgə təlimlərin təşkil olunması, Böyük Vətən müharibəsində Qələbənin 75-ci ildönümünün qeyd olunması ilə bağlı SQKŞ-nin tədbirlər planının həyata keçirilməsi, elmi-tədqiqat fəaliyyətinin aparılması, 2018-ci ildə SQKŞ-nin fəaliyyətinin nəticələri və 2019-cu il üçün tapşırıqları, növbəti iclasın gündəliyi və digər məsələlər müzakirə olunmuşdur.

İclasdan sonra Rusiya, Belarus, Türkmənistan, Tacikistan sərhəd xidmətlərinin rəhbərləri ilə görüşlər keçirilmiş, qarşılıqlı əlaqələrin perspektivləri və maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

Səfər çərçivəsində Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Qazaxıstan Respublikasının Milli Təhlükəsizlik Komitəsinin Sərhəd Xidmətinin nümayəndə heyətləri arasında görüş keçirilmiş, ikitərəfli əməkdaşlığın mövcud vəziyyəti və qarşılıqlı faydalı inkişafı məsələləri müzakirə olunmuş, görüşün yekunlarına dair ikitərəfli protokol imzalanmışdır.

Səfər dostluq və qarşılıqlı anlaşma şəraitində keçmişdir.

***"Azərbaycan"***

## 16 noyabr Beynəlxalq Tolerantlıq Günüdür



**Azərbaycan tolerantlığının dünyaya örnək olmasının daha bir sübutu: İslam, katolik, pravoslav, yəhudi və udi-xristian dini icmalarının liderləri Bakıdan başqa heç bir yerdə birgə görüş keçirməyiblər. Onları birləşdirən Azərbaycan və Heydər Məscididir!**

# Tolerantlığın Azərbaycan modeli

### Prezident İlham Əliyevin uğurlu fəaliyyəti nəticəsində bu model dünyada mükəmməl nümunə kimi qəbul edilir

*Əvvəli 1-ci səh.*

Bu münasibət müasir zamanda da nəinki dəyişməyib, əksinə, daha da dərinləşib. Beləliklə, tarixdən süzülüb gələrək milli və dini tolerantlığın Azərbaycan modeli formalaşıb. Azərbaycanın dövlət müstəqilliyindən sonra xalqımızın əsrlər boyu yaşatdığı bu dəyər dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrilib. Məhz ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra ictimai-siyasi sabitliyin bərpa olunması bütün xalqların və dinlərin nümayəndələrinin əvvəlki tək mehriban şəkildə birgə yaşayışını təmin etdi. Ölkə ərazisində milli və dini zəmində separatçılıq toxumu səpən bütün zərərli cərəyanların, qruplaşmaların fəaliyyətinin qarşısı qətiyyətlə alındı. 1995-ci ildə qəbul edilən Azərbaycan Konstitusiyası ölkəmizdə yaşayan bütün azsaylı xalqların və dinlərin nümayəndələrinin hüquqlarını, vicdan azadlığını təsbit etdi.

Son 15 ildə Azərbaycanın bir dövlət kimi keçdiyi sürətli inkişaf yolu hər birimizdə qürur və fəxarət hissi doğurur. Bu dövrdə ölkəmizin özünəməxsus sürətli yüksəlişindən yaranan inkişafın Azərbaycan modeli bir sıra dövlətlərin marağına səbəb olub. Doğma vətənimizi dünyaya tanıdan həm də tolerantlığın Azərbaycan nümunəsi olub. Çünki bu dövrdə Azərbaycanda həyata keçirilən dövlət siyasəti ölkədəki mövcud tolerantlıq mühitini daha da dərinləşdirib, xalqların və dinlərin nümayəndələri arasındakı tarixi dostluq tellərini daha da möhkəmləndirib. Təsadüfi deyil ki, Azərbaycanda tolerantlığın tam təmin olunması faktı dəfələrlə müxtəlif beynəlxalq təşkilatların hesabatında öz əksini tapıb.

Azərbaycan üçün son illərin ən böyük tarixi reallıqlarından biri də ölkəmizin beynəlxalq tədbirlər məkanına çevrilməsidir. Bu tədbirlərin bir qisminin mədəniyyətlər və sivilizasiyalar arasında dialoqa həsr olunması xüsusilə diqqəti çəkir. Bu da təsadüfi deyil. Çünki bütün dünya Azərbaycanı tolerant ölkə kimi tanıyır və ölkəmizdə bu sahədə mövcud olan ənənələri nümunə kimi qəbul edir.

Azərbaycandakı tolerantlığın ən gözəl nümunələrindən biri də tez-tez bütün dini icmaların nümayəndələrinin burada bir araya gəlməsidir. Məsələn, müsəlmanların Ramazan ayında təşkil olunan iftar məclislərində Azərbaycanda yaşayan xristianların, iudaistlərin və digər dini icmaların nümayəndələri də iştirak edirlər. Üç əsas səmavi dinin nümayəndəsinin mehriban şəkildə bir araya gəlməsi olduqca nadir hadisədir və sevindirici haldır ki, bu, məhz Azərbaycanda baş verir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, dinlər və məzhəblər arasında dostluq və dözümlülük münasibətlərinin alternativi yoxdur: "Bu gün dünyada tolerantlıq örnəyi kimi tanınan Azərbaycan sivilizasiyalararası dialoqun, beynəlxalq sülh və təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl olaraq zəruri təşəbbüs və çağırışlarla çıxış edir. Son illər ölkəmizdə beynəlxalq humanitar forumların, dünya dini liderlərinin sammitlərinin keçirilməsi, Beynəlxalq Tolerantlıq Gününün böyük məmnuniyyət hissi ilə ayrı-ayrı konfessiyaların nümayəndələrinin iştirakı ilə qeyd olunması, bəşəriyyəti narahat edən qlobal problemlər ətrafında birgə müzakirələrin aparılması bunun bariz nümunəsidir. Bu gün bir sıra ölkələrdə şahidi olduğumuz mürəkkəb etno-siyasi proseslər, dinin siyasi ambisiyalara alət edilməsi cəhdləri, radikalizm və ekstremizmin artması göstərir ki, sülh və əmin-amanlıq axtarışında olan dünyamızda multikulturalizmin alternativi olmadığı kimi, müxtəlif dinlər və məzhəblər arasında dostluq və dözümlülük münasibətlərinin də alternativi yoxdur".

Azərbaycandakı tolerantlıq mühitinin inkişafına Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi də öz səlahiyyətləri çərçivəsində layiqli töhfələr verir. Respublikada dini fəaliyyət sahəsində dövlət siyasətinin həyata keçirilməsini təmin edən, dini qurumlarla bağlı qanunvericiliyə riayət olunmasına nəzarəti həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi komitənin fəaliyyəti sağlam dini mühitin qorunub saxlanılmasından ibarətdir. Bununla yanaşı əsas vəzifələrindən biri dini etiqad azadlığının həyata keçirilməsi üçün müvafiq şəraitin yaradılması olan komitə fəaliyyəti ilə dini konfessiyalar arasında əlaqələrin də dərinləşməsinə, qarşılıqlı hörmət, anlaşma və dözümlülük mühitinin möhkəmlənməsinə fəal dəstək verir. Nəticə etibarilə bu fəaliyyət mövcud tolerantlıq mühitinin daha da təkmilləşdirilməsinə xidmət edir.

Azərbaycanda bütün millətlərin, mehriban və bir-birlərinin adət-ənənələrinə hörmət ruhunda yaşaması həm tarixən, həm də bu gün malik olduğumuz ən böyük mənəvi dəyərlərdən biridir. Bu dəyər həm də ölkəmizin inkişafının və ictimai-siyasi sabitliyinin mühüm şərtləri sırasında yer alır. Azərbaycandakı tolerantlıq mühiti bundan sonra daha da möhkəmlənəcək və ölkəmizin yüksəlişinə özünün layiqli töhfəsini verəcək.

***Vüsalə HÜSEYNOVA,***
***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əməkdaşı***

# Tolerantlıq, əslində, həm də azərbaycançılıq deməkdir

### Dünyanın ildə bir dəfə qeyd etdiyi bayramı Azərbaycanda hər gün yaşayırlar

*Əvvəli 1-ci səh.*



**Aleksandr İşenin,**
*Bakı və Azərbaycanın Baş Yepiskopu:*

- Digər ölkələrdə olduğu kimi, milli məhəllələr, küçələr Azərbaycanda yoxdur. Bizdə bir küçədə, binada müxtəlif millətlər, din nümayəndələri yaşayır. Yeni ili, Novruzu, Qurban, Ramazan, Pasxa bayramlarını hamı birlikdə qeyd edir.



**Milix Yevdayev,**
*Dağ Yəhudiləri Dini İcmasının sədri:*

- Biz bütün dini ayinlərimizi sərbəst yerinə yetiririk. Bu sinaqoqu dövlət tikib bizə hədiyyə verdi, möhtərəm Prezident bizi Yeni il münasibətilə hər dəfə təbrik edir ki, belə bir nümunə heç bir ölkədə yoxdur.



**Jozef ata,**
*"Bakirə Müqəddəs Məryəm" katolik kilsəsinin keşişi:*

- 2002-ci ildə Papa Fransiskin ölkənizə səfəri qarşılıqlı əlaqələrin daha da möhkəmlənməsinə zəmin yaratdı. Müasir, azad Azərbaycanda elə şərait var ki, nəinki katoliklər, digər dinlərin nümayəndələri də öz fəaliyyətlərini rahat yürüdə bilirlər



***Robert Mobili,***
*Alban-udi dini icmasının sədri*

- Alban kilsəsinin dini varisləriyik, müsəlmanların ətrafında əsrlərdir təhlükəsiz yaşayan qədim xristian bir xalqıq. Udilər yüz faiz öz ana dillərini bilir, ibadətlərini öz dillərində aparırlar. Bu münbit və zəngin mühiti Azərbaycan dövləti bizim üçün yaradıb.



***Hacı Bəhruz Əzizov,***
*Hacı Əjdərbəy məscidinin imamı:*

- Heç kim məsciddə düşünmür ki, məzhəbi, təriqəti, inancı nədir. Bütün məzhəb sahibləri eyni bir səfin içərisində durur. Onların danışıq dilləri fərqli olsa da, inanc yönləri eynidir. Bax, bu tolerantlıq həqiqətini dünyaya Azərbaycan göstərdi.

### Sinaqoqdaydıq, birdən çayın o biri sahilindən azan səsi ucaldı...

"Bir müddət əvvəl Amerikanın "Time" qəzetinin müxbiri Azərbaycana gəlmişdi. Mən onu Qubadakı Qırmızı Qəsəbədə müşayiət etdim. Biz Sinaqoqda olan əsnada çayın digər sahilindəki məsciddən azan səsi yüksəldi. Bu xanım o qədər təəccübləndi ki... Tez çıxdı bayıra və başladı azanın səsini diktofona yazmağa, fotolar çəkməyə. O mənə sual verdi ki, axı bu necə ola bilər: orada müsəlman azanı, burada yəhudi ibadəti?! Dedim, xanım, bu sizin üçün təşkil olunan bir şey deyil, burada hər gün həyat bu cür davam edir..."

Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev Azərbaycanda mövcud olan tolerantlığın əcnəbilər tərəfindən necə təəccüblə qarşılandığını bizə danışır. O deyir ki, tolerantlıq və multikultural mühit elə bir məfhumdur ki, o, sehrli çubuq vasitəsilə yarana bilməz. İnsanların şüurunda, həyat tərzində, qəlbində xalqa, millətə, ölkəyə, əhatəsinə sevgi olmasa, bu mühitdən danışmaq mümkün deyil: "Ulu öndər Heydər Əliyev deyirdi ki, "Tolerantlıq xalqın yüksək mədəniyyətinin təzahürüdür". Məhz Azərbaycan xalqının yüksək mədəniyyətinin təntənəsidir ki, bu gün ölkədə qeyri-islam icmalarının sayı 40-a çatıb. Nəhəng dövlətlərlə müqayisədə Azərbaycan kiçik ölkədir, amma əməlləri böyükdür".

İcma sədri vurğulayır ki, Azərbaycan 30 ildir şərə düşüb, torpaqları zəbt olunub və bu, milli zəmində yaranan münaqişə səbəbindən olmayıb: "ABŞ-ın Kaliforniya ştatında 1 milyona yaxın sayı olan erməni diasporu yaşayır. Onlar 2015-ci ildə Kaliforniya Senatına qətnamə vermişdilər ki, bu ştat erməni separatçılarını rəsmən tanısın. Mən Los Ancelesə gedib bu qətnaməyə qarşı çıxış etdim. Orada mənə sual verdilər ki, siz azərbaycanlı deyilsiniz, bu necə olur ki, 17 min kilometr uzaqdan gəlib, Azərbaycanı müdafiə edirsiniz? Dedim, bəli, mən azərbaycanlı deyiləm, amma Azərbaycan vətəndaşıyam. İsrail tarixi, Azərbaycan isə doğma vətənimizdir. Siz indi bu qətnamə ilə müharibəni qızışdırırsınız, amma o müharibədə nə siz, nə də sizin övladlarınız vuruşmayacaq. Savaşanlar yenə azərbaycanlılar və Azərbaycanda yaşayan xalqların övladları olacaq. Yəhudi əsilli olsaq da, bizim də şəhidlərimiz, milli qəhrəmanımız var".

### İki ana dilimiz var...

Milix Yevdayevin sözlərinə görə, Azərbaycanda yəhudi xalqının yaşayıb inkişaf etməsi üçün digər dövlətlərdən də yaxşı şərait var: "Sinaqoqa gəlmisiniz və gördünüz ki, qapılarımız taybatay açıqdır, amma Avropada gedib bir sinaqoqa sərbəst şəkildə girə bilməzsən. Hər 10 addımdan bir bu məkanları avtomatlı, silahlı əsgərlər qoruyur. Biz isə bütün dini ayinlərimizi sərbəst yerinə yetiririk. Bu sinaqoqu dövlət tikib bizə hədiyyə verdi, möhtərəm Prezident bizi Yeni il münasibətilə hər dəfə təbrik edir ki, belə bir nümunə heç bir ölkədə yoxdur".

Azərbaycan xalqının istifadə etdiyi bütün imtiyazlardan onların da sərbəst yararlandığını diqqətə çatdıran həmsöhbətimiz bildirdi ki, əsrlər boyu formalaşan milli-mənəvi dəyərlərindən, adət-ənənələrindən heç nə itirməyib, əksinə zənginləşdiriblər.

Bakıda mühüm küçələrdən biri Milli Qəhrəman Albert Aqarunovun adını daşıyır. Onun şərəfinə xatirə medalı hazırlanıb, hər il adına beynəlxalq karate yarışları keçirilir. Dünyada yaşayan 16 milyona yaxın yəhudidən 30 mini Azərbaycandadır. Qubada yerləşən Qırmızı Qəsəbədə iki min ildir ki, Dağ yəhudiləri kompakt şəkildə yaşayırlar. Hazırda Azərbaycanda 7 sinaqoq var, 1-i isə yeni tikilir və artıq hazır olmaq ərəfəsindədir. 2 yəhudi orta məktəbində başqa fənlərlə yanaşı yəhudi dini adət-ənənələri də öyrədilir, həmçinin 2 uşaq bağçası, bir kollec fəaliyyət göstərir.

Milix Yevdayev söyləyir ki, bayramlarını bütün konfessiyaların nümayəndələri ilə birlikdə qeyd edirlər, uşaqlıqdan ən sevimli bayramları isə Peysax bayramıdır. Səkkiz gün həmin bayramı keçirir, çörək istifadə etmir, əvəzinə duzsuz, odda bişmiş lavaş yeyirlər. Bu bayramın yəhudilər üçün çox böyük tarixi əhəmiyyəti var. Toylarında azərbaycanlı müğənnilər iştirak edir, kabab, plov kimi Azərbaycanın milli xörəkləri süfrəyə verilir. Azərbaycan xalqının xeyrində-şərində həmişə iştirak edirlər: "Bizi Azərbaycandan ayırmaq mümkün deyil. Biz nəinki dostuq, qardaşıq, Azərbaycanın ayrılmaz bir hissəsiyik. Biz dil açandan iki dildə danışırıq, həm Azərbaycan, həm də yəhudi dilində".

### Katolik xristian olaraq Azərbaycanda özümü evimdəki kimi sərbəst hiss edirəm...

"Katolik xristian olaraq özümü Azərbaycanda sərbəst, hətta deyə bilərəm ki, öz evimdəki kimi hiss edirəm" - söyləyən Bakıdakı "Bakirə Müqəddəs Məryəm" katolik kilsəsinin keşişi Jozef ata deyir ki, həm dəstək, həm əməkdaşlıq baxımından, həm də Azərbaycanda katoliklərin yaşaması üçün yaradılan yüksək şəraitdən razıdırlar: "Düşünürəm ki, ötən illərlə, yəni sovet dövründə katolik kilsəsinin söküldüyü zamanla müqayisədə müasir Azərbaycanda xeyli müsbət işlər görülüb. Məsələn, 2002-ci ilin may ayında Papa II İohann Pavelin Azərbaycanı ziyarət etməsini və Prezident Heydər Əliyevlə görüşməsini, hazırda fəaliyyət göstərən kilsənin yerləşdiyi ərazinin ayrılmasını katolik kilsəsinə hörmət və ədalət rəmzi kimi dəyərləndirmək olar. Həmçinin 2002-ci ildə isə Papa Fransiskin yenidən ölkənizə səfəri bu qarşılıqlı əlaqələrin daha da möhkəmlənməsinə zəmin yaratdı. Müasir, azad Azərbaycanda elə şərait var ki, nəinki katoliklər, digər dinlərin nümayəndələri də öz fəaliyyətlərini rahat yürüdə bilirlər".

Jozef ata deyir ki, Azərbaycanda olan tolerantlıq mühiti, digər ölkələrə bir nümunədir və müqayisə edəndə görünür ki, o biri ölkələrdə dini tolerantlıq nə səviyyədədir, orada nələr baş verir. Azərbaycanda isə tolerantlıq yüksək səviyyədədir.

Azərbaycanda 1 katolik kilsəsinin olduğunu deyən keşiş qeyd edir ki, Gənclikdə yerləşən Saat məbədində də dini ayinləri yerinə yetirirlər: "Yerli əhaliyə qarşı münasibətə gəlincə, onlarda bir cəhət var ki, mənim çox xoşuma gəlir. Tanrı, sonsuz həyat kimi mövzular ətrafında onlarla sərbəst müzakirə aparmaq olur. Bəzi ölkələrdə bu mövzu tabu kimi qalır, bu barədə danışmırlar. Amma bu vacib mövzu barədə danışılmalı, sirrin açarını tapmaq üçün müzakirə aparılmalıdır. Burada bunu etmək çox rahatdır. Biz hamımız bir Tanrının övladlarıyıq və bir-birimizi anlamaq çətin deyil, çünki hər bir insanın təbiəti eynidir".

### Kiçik bir qəsəbədə 3 kilsə, 2 məscid...

"Bir dəfə İsveçrədən Azərbaycana qonaqlar gəlmişdi. Onlar dedilər ki, bu ölkədə tolerantlıq mühitinin olması ilə bağlı praktiki nümunə göstərə bilərsinizmi? Onları apardım Qəbələnin Nic qəsəbəsində keçirilən həftə bazarına. Dedim ki, görürsünüzmü, burada müsəlman da, yəhudi də, xristian da, ləzgi də, talış da var. Siz onların hansı dinə, millətə xas olduğunu bilmədiniz, amma biz bilirik ki, burada kim hansı millətdəndir. Biz hər zaman onlarla salamlaşır, alış-veriş edir, deyib-gülürük, bir ailəyik..."

Alban-udi dini icmasının sədri Robert Mobili qəzetimizə danışır ki, hazırda balaca bir qəsəbə olan Nicdə 5 ibadət ocağı var: 3 kilsə, 2 məscid. Burada səhər azan, günorta kilsə zənglərinin səsi yüksəlir ki, bunun özü Azərbaycanda tolerantlığın başlıca faktorudur və dünyada belə bir nümunə yoxdur: "Bu gün Azərbaycanda yaşayan xalqlar rəngarəng tolerantlıq nümunəsi kimi dünya tarixinə örnəkdirlər. Burada fərqli xalq, etno mədəniyyət, dini konfessiya nümayəndələri birgə yaşayırlar. Bunun bariz nümunələrindən biri də Qəbələ rayonunun Nic qəsəbəsində yaşayan udilərdir. Udi xalqı Azərbaycanın köklü, aborigen azsaylı xalqlarından biridir. Bu etnos qədim Qafqaz Albaniyasının Uti əyalətində, XIX əsrdə isə Nuxa (indiki Şəki rayonu) bölgəsinin bir neçə yaşayış məskənində məskunlaşıb. Hazırda isə Qəbələ rayonunun Nic kəndində və qismən də Oğuz rayonunda yaşayırlar. Udilər, həm qədim etnik xalqdır, həm də fərqli dini konfessiyadır. Alban kilsəsinin dini varisləriyik, müsəlmanların ətrafında əsrlərdir təhlükəsiz yaşayan qədim xristian bir xalqıq. Maraqlı cəhət ondan ibarətdir ki, biz düzənlikdə yaşayırıq. Biri var hansısa uçqar dağlıq bir yerdə məskunlaşırsan, coğrafi mühit onları müdafiə edir, biri də var ki, etnos düzənlik yerdə yaşayır və ona heç bir təhlükə yoxdur".

Robert Mobili deyir ki, əslində tarix bu faktı qəbul etmir. Çünki düzənlik yerdə yaşayan kiçik xalqlar böyük millətlər içərisində əriməyə məhkumdurlar. Çox zaman Avropa alimləri Azərbaycana gəlib bu təzadın səbəbini öyrənməyə çalışırlar ki, necə olur düzənlik ərazidə bir xalq həm öz etnik milli adət-ənənəsini, həm də müsəlmanların ətrafında xristianlığı saxlayıb. Bu etnosun Azərbaycanda tarixən var olması və bu günə qədər özünü qoruyub saxlamasının əsas səbəbi bir tərəfdən xalqın tolerantlığı, digər tərəfdən Azərbaycanda olan multikultural mühitdir: "Ermənistanla müqayisə edək, orada ancaq erməni kilsəsinə bağlı ermənilər yaşayırlar. Azərbaycanda isə bütün dinlərin təmsilçiləri azad yaşayır, ibadət edirlər. Udilər yüz faiz öz ana dillərini bilir, onlara 5-ci sinfə kimi ana dillərində dərs keçilir, ibadətlərini öz dillərində aparırlar. Bu münbit və zəngin mühiti Azərbaycan dövləti bizim üçün yaradıb".

Robert Mobili məlumat verdi ki, Azərbaycan müstəqillik qazandıqdan sonra udilərin həyatında xeyli müsbət dəyişikliklər olub. Prezident İlham Əliyevin göstərdiyi diqqət və qayğı sayəsində 2003-cü ildə Qafqazın ən qədim kilsələrindən olan Şəki rayonundakı Kiş məbədi, 2006-cı ildə isə Qəbələ rayonunun Nic qəsəbəsində yerləşən 3 xristian məbədindən biri - Müqəddəs Yelisey adına Çotari kilsəsi bərpa edilib və icmanın istifadəsinə verilib. Bir azərbaycanlı rəssammemar öz vəsaiti hesabına Nicdə 3 hektar ərazidə qədim Alban din xadiminin həyət evini bərpa etməyə kömək edib və indi bura tarixi etnomədəni muzey kimi fəaliyyət göstərir. Bütün bayramlarını, o cümlədən sovet sistemi dağılandan sonra 20 iyulda keçirdikləri Udi Mədəniyyət Gününü lazımi səviyyədə qeyd edirlər.

Robert Mobili söyləyir ki, bu gün udi mətbəxi də Azərbaycan mətbəxi ilə yanaşı istifadə olunur. Bu qədim xalqın mətbəxində xüsusilə turşunun zəngin reseptorası var. İstəyirlər ki, dövlət səviyyəsində Nicdə də turşu bayramı keçirsinlər.

### Pravoslavlar Azərbaycandakı tolerantlığı dünyaya nümunə göstərirlər

"Dini həyatın əsası tolerantlıqdır, amma Azərbaycan artıq tolerantlıqdan multikulturalizm səviyyəsinə qalxıb. Bu ölkədə 100-dən çox fərqli xalq yaşayır. Bu reallıq isə həm Konstitusiyada, həm də ümummilli lider Heydər Əliyevin "çoxmillətlilik bizim sərvətimizdir" fikrində öz əksini tapır".

Bakı və Azərbaycanın Baş Yepiskopu Aleksandr İşenin söyləyir ki, əgər ölkə çoxmillətlidirsə, deməli, çox konfessionaldır. Amma Azərbaycanda digər millətlərin, dinlərin nümayəndələrinə qarşı dözümlülük var: "Məsələn, bununla bağlı belə nümunə gətirmək olar: digər ölkələrdə olduğu kimi, milli məhəllələr, küçələr Azərbaycanda yoxdur. Bizdə bir küçədə, binada müxtəlif millətlər, din nümayəndələri yaşayır. Baxın, Yeni ili, Novruzu, Qurban, Ramazan, Pasxa bayramlarını hamı birlikdə qeyd edir".

Aleksand İşenin söyləyir ki, inanclı insanlar öz dini qanunlarına görə həyatlarını yaşasınlar deyə, Azərbaycanda hər bir şərait yaradılıb: "Artıq dini fəaliyyətin müəyyən çərçivələrə salındığı və inanclı insanların öz dini tələbatlarını ödəyə bilmədikləri dövrü geridə buraxmışıq. Azərbaycan öz suverenliyini qazanandan sonra Konstitusiyaya əsasən din siyasətdən ayrılıb və inanclı insanlar öz dini ayinlərini yerinə yetirməyə imkan qazanıblar".

Azərbaycanda çoxlu dostları olduğunu söyləyən yepiskop deyir ki, burada müsəlman, xristian və yəhudi icmaları arasında xoş münasibətlər mövcuddur: "Bu da bir faktdır ki, ölkədə çoxlu sayda qarışıq nikahlar var. Məsələn, ər müsəlman, arvad isə xristian, ya da yəhudi, yaxud da əksinə olan ailələr var. Bu dini fərqlilik onlar arasında heç bir çətinlik yaratmır. Bunun özü Azərbaycana xas cəhətdir və tolerantlıq, multikulturalizmin də mənası elə budur".

Aleksandr İşenin məlumat verir ki, hazırda Bakıda üç kilsə var - Müqəddəs Mürdaşıyan Zənənlər Kafedral, köhnə Müqəddəs Ana və Bakının mərkəzində yerləşən arxanqel Mixail kilsəsi. Eyni zamanda, Sumqayıtda, Xaçmazda, Gəncədə, Lənkəranda pravoslavların kompakt yaşadığı məkanlarda kilsələr var.

### İslam təriqətlərinin nümayəndələri yalnız Azərbaycanda vəhdət namazı qılırlar

"Hacı Əjdərbəy məscidi təmir olunanda Prezident İlham Əliyev dedi ki, bura ittifaq, birlik məscididir və bu doğrudan da belədir" söyləyən Qafqaz Müsəlmanlar İdarəsinin Qazilər Şurasının üzvü, Hacı Əjdərbəy məscidinin imamı hacı Bəhruz Əzizov məlumat verir ki, Azərbaycanda olan bütün dini təriqətlərin nümayəndələri hər cümə günü bu məscidə gəlib namaz qılırlar: "Görün bu məscid necə böyükdür, amma yenə də gələn insanlara darlıq edir. Burada heç kim düşünmür ki, məzhəbi, təriqəti, inancı nədir. Bütün məzhəb sahibləri eyni bir səfin içərisində durur. Məsələn, bir səfdə olan 200-250 adamdan ən az 20-30 nəfərinin ayrı-ayrı xalqların nümayəndəsi olduğunu görərsiniz. Onların danışıq dilləri fərqli olsa da, inanc yönləri eynidir. Bax, bu tolerantlıq həqiqətini dünyaya Azərbaycan göstərdi".

Hacı Bəhruz Əzizov söyləyir ki, dünya insanına Azərbaycan qədər açıq olan ikinci ölkə yoxdur. Hələ əsrlər əvvəl dünya ölkələri birləşmək, tolerantlıq mühiti yaratmaq istəyib, amma bu gün də buna nail ola bilməyib. Azərbaycanda isə bu model tarix boyu var olub və bu gün də davam edir. Elə son 10 ildə Azərbaycanda keçirilən beynəlxalq konfransların özü tolerantlıq nümunəsidir. Ən kiçik bir dövlətin nümayəndəsinə, öz ölkəsində o qədər sayılmayan bir quruma belə, Bakı öz qucağını açır: "Tolerantlıq Azərbaycan xalqının əslindədir, kökündədir, genindədir. Azərbaycan Prezidentinin fərmanı ilə Bakıda Beynəlxalq Multikulturalizm Mərkəzi yaradıldı, ölkəmizdə "İslam Həmrəyliyi ili" elan olundu, İslam Oyunları keçirildi. Bunun sayəsində ölkəmiz müsəlmanları bir yerə yığdı, onların yarışını təşkil etdi və bunun mümkünlüyünü göstərdi. Azərbaycan ona qarşı düşmənçilik edənlərə də həmişə tolerant yanaşır. Məsələn, Bakının mərkəzində ermənilərin dini məbədi, məzarlıqları qorunub saxlanılır, onlara qarşı heç bir hörmətsizlik edilmir, amma bizim işğal olunan torpaqlarımızdakı dini abidələr, məzarlıqlar dağıdılır".

Qeyd edək ki, Azərbaycanda dini qurumlara dövlət tərəfindən mütəmadi maliyyə yardımı göstərilir. Yalnız elə bu il Prezidentin Ehtiyat Fondundan Qafqaz Müsəlmanları İdarəsinə 1 milyon manat, Rus Pravoslav kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna və Dağ yəhudiləri dini icmasına 250 min, Avropa yəhudilərinin Bakı dini icmasına, Azərbaycanda Katolik kilsəsinin Apostol Prefekturası dini qurumuna və Alban-udi Xristian dini icmasına 100 min manat ayrılıb.

Azərbaycan tolerantlıq nümunəsi kimi bütün dünya ölkələrinə örnək göstərir. Tolerantlıq Azərbaycan xalqının tarixindən, keçmişindən süzülərək bu günə gələn milli-mənəvi dəyərləri arasında ən başlıca yeri tutur. Bu xalq fədakar, vəfalı, qonaqpərvər və ən əsası dözümlüdür. Bütün bu bəşəri xüsusiyyətlər isə onun genetik kodudur və heç bir kənar müdaxilə, təsirlər ilə yadlaşa, özgələşə, başqalaşa bilməz...

Bu gün tolerantlıq günüdür...

Demək, həm də azərbaycançılıq günüdür...

***Yasəmən MUSAYEVA,***
***Fərizə ƏHMƏDOVA,***
***"Azərbaycan"***

# Bakıda “Üfüqdə yeni fürsətlər: qadın sahibkarlar üçün yaşıl işıq” mövzusunda konfrans keçirilib






Noyabrın 15-də Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının təşkilatçılığı ilə “Üfüqdə yeni fürsətlər: qadın sahibkarlar üçün yaşıl işıq” mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbiri açan Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova bildirib ki, konfransın təşkilində əsas məqsəd qadın sahibkarlığının inkişafına dəstək olmaq, onlar üçün yeni imkanlar yaratmaqdan ibarətdir.

Bildirilib ki, noyabrın 12-18-də dünyada sahibkarlığın inkişafı həftəsi qeyd olunur. Konfrans həm də bu təşəbbüsə dəstək vermək məqsədi daşıyır.

Məlumat verilib ki, Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası İqtisadiyyat Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının dəstəyi, ölkədə fəaliyyət göstərən qadın sahibkarların təşəbbüsü ilə təsis olunub. Assosiasiyanın əsas məqsədi kiçik və orta sahibkarlıqla məşğul olan sahibkar qadınları bir araya gətirmək, onların inkişafına, yerli və dünya arenasına çıxmalarına dəstək verməkdir. Eləcə də məqsəd assosiasiyanın təşəbbüsü ilə yerli və beynəlxalq tədbirlərdə, forumlarda, konfranslarda, təlimlərdə sahibkar qadınların iştirakını təmin etməkdir. Qısa müddət ərzində assosiasiya böyük nailiyyətlər əldə edib, daxili və xarici əlaqələrini genişləndirib və hazırda sahibkar qadınlarla birgə ölkəmizi beynəlxalq arenada layiqincə təmsil edir.

Hicran Hüseynova vurğulayıb ki, bu gün Azərbaycanda sahibkarlığa çox böyük dəstək var. Ölkəmiz bu sahədə bir çox beynəlxalq konvensiyaya qoşulub. Bu konvensiyalarda ölkəmiz üçün vacib məsələlər, xüsusilə gender problemi də yer alıb. Əvvəllər Azərbaycanda qadın sahibkarlar 4 faiz təşkil edirdisə, indi bu rəqəm 30 faizə çatıb. Son 15 ildə Azərbaycanda 4060-dan çox qadın sahibkara 72,5 milyon manat kredit verilib. Bu, o deməkdir ki, Azərbaycanda bu istiqamətdə böyük dəyişikliklər gedir.

Tədbirdə çıxış edən Baş nazirin müavini Əli Əhmədov qeyd edib ki, hökumətin diqqət mərkəzində saxladığı məsələlərdən biri də ailə sferasında qadının əməyinin əhəmiyyətli dərəcədə yüngülləşdirilməsi, onların kiçik və orta sahibkarlığa cəlb edilməsidir. Bu, hökumətin müəyyən etdiyi siyasətin tərkib hissəsidir. Azərbaycan hökuməti qadınların kiçik və orta sahibkarlıqla məşğulolma səviyyəsini artırmaq üçün proqramlar işləyir və həyata keçirir. “Biz qadınların kiçik və orta sahibkarlıqla məşğul olmasını stimullaşdırmaq üçün tədbirlər həyata keçiririk. Qadınlarımız ailə həyatının qayğısının böyük hissəsini öz üzərlərinə götürdüklərindən onların kiçik və orta sahibkarlıqla məşğul olması imkanları bir-birini tamamlamır” - deyə o əlavə edib.

Baş nazirin müavini qeyd edib ki, Azərbaycanda kiçik sahibkarlığın formalarından biri kimi özünüməşğulluq forması tətbiq olunur. Bu da qadınların əmək fəaliyyətinin artırılması üçün əlavə imkan yaradır. Azərbaycan hökuməti Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi vasitəsilə özünüməşğulluq üçün əhəmiyyətli stimullaşdırıcı tədbirlər həyata keçirməyi, o cümlədən maliyyə vəsaiti ayırmağı nəzərdə tutub.

Özünüməşğulluğun inkişaf etdirilməsində hökumətin müəyyənləşdirdiyi proqramlarda iştirak etməklə qadınlarımız kiçik istehsal və xidmət üçün müəyyən vərdiş və biliklər əldə edəcəklər. Azərbaycan qadınlarının məşğulluq səviyyəsi bir sıra sahələrdə, xüsusilə də təhsil və səhiyyə sahəsində yüksəkdir. Hətta iki sahədə qadınlar iştirakçılıq səviyyəsinə görə kişilərdən üstündürlər. Bütün sahələrdə qadın və kişilərin bərabər təmsil olunmaları vacib amildir. Biz bunu da təşviq edirik. Bu mənada, qadınların sahibkarlıq sahəsində iştirakçılığının artması önəmli vəzifələrdən biridir. Qadın fəallığı ictimai tərəqqinin ən vacib göstəricilərindəndir. Harada qadın fəallığı varsa, orada ictimai tərəqqi var. Azərbaycan qadını bütün sahələrdə ictimai fəallığını nümayiş etdirir, ictimai rəydə iştirak edir.

Diqqətə çatdırılıb ki, azad bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq, sahibkarlığın, xüsusilə kiçik və orta sahibkarlığın inkişafına qayğı göstərilməsi Azərbaycan dövlətinin diqqət yetirdiyi məsələlərdən biridir. Bu işdə Azərbaycan Qadın Sahibkarlığı Assosiasiyası müəyyən nailiyyətlər əldə edə bilib. Hədəfimiz ondan ibarətdir ki, qadınlarımız kiçik və orta sahibkarlıqla daha cəsarətlə, daha qətiyyətlə məşğul olsunlar, daha çox sayda qadın sahibkar sferasına cəlb olunsun.

Sonra çıxış edən BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi Qulam İshaqzai konfransın əhəmiyyətindən danışıb. Bildirib ki, belə tədbirlərin keçirilməsi qadınların sahibkarlıq fəaliyyətinin artırılmasında, onların hüquqlarının qorunması və layiqli əməyin təmin olunmasında, həmçinin perspektivlərin müəyyən edilməsində mühüm rol oynayır. Qadınlar arasında sahibkarlığı gücləndirmək üçün aidiyyəti dövlət qurumları, vətəndaş cəmiyyəti, media və mütəxəssis icması da daxil olmaqla bütün iştirakçıların davamlı dəstəyinə ehtiyac var.

Azərbaycan Qadın Sahibkarlığının İnkişafı Assosiasiyasının İdarə Heyətinin sədri Sakinə Babayeva vurğulayıb ki, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu sosial-iqtisadi siyasət respublikamızın dinamik inkişafına şərait yaradıb. Son 15 ildə makroiqtisadi sabitlik şəraitində sosialyönümlü iqtisadiyyatın formalaşması tam təmin edilib, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun və regionların inkişafı sürətlənib, sahibkarlığa dövlət dəstəyi gücləndirilib. Azərbaycanda qadınların əhalinin 50,1 faizini təşkil etdiyini deyən S.Babayeva bildirib ki, ölkədə fəaliyyət göstərən fərdi sahibkarların 21,5 faizi qadınlardır. Ölkədə qadınların əmək bazarında kişilərlə bərabərhüquqlu iştirakına imkan yaradılması onların idarəetmə, biznes və hakimiyyət strukturlarında daha geniş təmsil olunması ilə nəticələnir. Bu gün Azərbaycanda hər 100 təhsil alanın orta hesabla 47 faizini, işçi qüvvəsinin 49 faizini, məşğul əhalinin 48 faizini, elmi işçilərin isə 53 faizini qadınlar təşkil edir. Qadın sahibkarlığın inkişafı üzrə komissiyanın fəallığının real nəticəsi olaraq bu günədək 400-dək qadın iş adamı Azərbaycan Sahibkarlar Konfederasiyasının ətrafında toplana bilib.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə diqqətə çatdırıb ki, bugünkü tədbir Azərbaycan qadın hərəkatının inkişafında özünəməxsus rol oynayacaq. Azərbaycan qadınının uğurları kifayət qədərdir. Dövlətimizin iqtisadi inkişafında sahibkar qadınlarımızın rolu böyükdür. Sahibkarlığın, xüsusilə də qadın sahibkarlığının inkişafı ölkə rəhbərliyinin ən çox önəm verdiyi məsələlərdəndir. Bu gün Azərbaycan qadınlarının ölkənin sosial-iqtisadi, ictimai-siyasi həyatda rolu getdikcə artır.

Bu yaxınlarda Vergi Məcəlləsində dəyişikliklər ediləcəyini deyən komitə sədri bildirib ki, təklif olunan dəyişiklik kiçik sahibkarlar üçün geniş imkanlar açacaq.

Sonra çıxış edən iqtisadiyyat nazirinin müavini Niyazi Səfərov deyib ki, ölkəmizdə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün münbit şərait yaradılıb. Fəxr hissi ilə demək olar ki, Azərbaycan sürətlə inkişaf edir. Ölkəmizdə sahibkarlığa, qadın sahibkarlara xüsusi önəm verilir. Bu, özünü bütün beynəlxalq hesabatlarda Azərbaycanın irəli pillələrdə olmasında göstərir.

Konfransda çıxış edən Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev, GIZ, SLRD-nin layihə rəhbəri Gülnarə Məmmədova, Rusiya Federasiyası Dağıstan Respublikası Qadınlar Cəmiyyətinin sədri İntizar Mamutayeva, Gürcüstan İşgüzar Qadınlar Birliyinin nümayəndəsi xanım Mzii Kereselidce və başqaları bu kimi tədbirlərin keçirilməsinin əhəmiyyətindən danışıb və assosiasiyanın gələcək fəaliyyətinə uğurlar arzulayıblar.

Daha sonra konfrans öz işini “Sahibkarlıqda qadınlar: biznes və ailə öhdəliklərini necə balanslaşdırmaq olar?” və “İnvestorlarla mentor saatı” mövzusunda iclaslarla davam etdirib.

Qeyd edək ki, konfrans çərçivəsində xanımların əl işlərindən ibarət sayca 13-cü olan “Göz nuru, əl əməyi” adlı sərgi təşkil olunub.

# Müasir İncəsənət Muzeyinin əsaslı təmirdən sonra açılışı olub

*Muzeydə xalq rəssamı Səttar Bəhlulzadənin əsərlərindən ibarət “Cizgi təranəsi” adlı sərgi açılıb*







Noyabrın 15-də Müasir İncəsənət Muzeyinin əsaslı təmirdən sonra açılışı olub. Bu münasibətlə xalq rəssamı Səttar Bəhlulzadənin əsərlərindən ibarət “Cizgi təranəsi” adlı sərgi açılıb.

AZƏRTAC xəbər verir ki, tədbirdə dövlət və hökumət üzvləri, tanınmış elm, mədəniyyət və incəsənət xadimləri iştirak ediblər.

Müasir İncəsənət Muzeyinin müdiri Xəyyam Abdinov əsaslı təmir olunan muzeydə görülmüş işlərlə bağlı məlumat verib.

“Müasir İncəsənət Muzeyi bir müddət idi ki, əsaslı təmirə bağlanmışdı. Təmir zamanı müasir avadanlıqdan və geniş spektrli, böyük təcrübəyə malik olan “Nova-lyuks” şirkətinin işıqlandırma sistemindən istifadə edilib. Bu şirkət işıqlandırma avadanlığı üzrə dünya liderləri sırasında yer tutmağa iddialıdır. Muzeyin yeniləşmiş texniki bazası daha keyfiyyətli fəaliyyət göstərməyə imkan yaradır. Belə böyük dəstəyə və qayğıya görə Heydər Əliyev Fondunun rəhbərliyinə minnətdarlığımızı bildirir, incəsənətsevərlər adından təşəkkür edirik” - deyə muzeyin rəhbəri vurğulayıb.

Muzeydə Azərbaycanın və dünya rəssamlarının nadir əsərlərinin təqdim edildiyini söyləyən Xəyyam Abdinov deyib: “Bu gün Müasir İncəsənət Muzeyində əsaslı təmirdən sonra xalq rəssamı Səttar Bəhlulzadənin 110 illik yubileyi ərəfəsində “Cizgi təranəsi” adlı sərgi açılır. O, müasir Azərbaycan mənzərə rəngkarlığının, eləcə də Azərbaycan impressionizminin yaradıcılarından sayılır. Məhz buna görə də onu Azərbaycanın Van Qoqu adlandırırlar. Sərgidə rəssamın heç vaxt nümayiş etdirilməmiş, şəxsi kolleksiyasından olan qrafik əsərləri yer alır”.

Sonra tədbir iştirakçıları sərgi ilə tanış olublar.

Sərgidə Səttar Bəhlulzadənin 130-dan çox nadir əsərindən ibarət ekspozisiya təqdim olunur.

Rəssam rəngkarlıq nümunələri ilə bərabər, qrafik əsərlər də yaradıb. Onun əsərləri beynəlxalq sərgilərdə nümayiş olunur. 2009-cu ildə Heydər Əliyev Fondu tərəfindən Səttar Bəhlulzadənin 100 illik yubileyi UNESCO-da qeyd edilib.

Sərgi iştirakçılar tərəfindən maraqla qarşılanıb.

# İlham Əliyev Ermənistanın təcridi prosesini uğurla yekunlaşdırır

*Əvvəli 1-ci səh.*

Aydındır ki, Ermənistan işğal siyasətinə son qoymayana qədər bu vəziyyətdə qalmağa, daha böyük problemlərlə üzləşməyə davam edəcək. Noyabrın 14-də Belarus Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Gennadi Axramoviçlə görüşündə Prezident İlham Əliyev qeyd olunan məqamlara geniş şəkildə toxunub. Öncə hər iki ölkə arasında münasibətlərin və qarşılıqlı etimadın yüksək səviyyədə olduğunu diqqətə çatdıran Prezident bildirib: *“Regionumuzda baş verən vəziyyəti müşahidə edirik, o cümlədən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının bu yaxınlarda Qazaxıstanda keçirilmiş Sammitini çox diqqətlə izlədik. Biz buna laqeyd deyilik. Fikrimcə, bunu başa düşmək olar. Çünki Ermənistan Azərbaycan ərazilərini işğal edən ölkədir və əlbəttə ki, biz hərbi-siyasi təşkilat olan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına hansı ölkənin nümayəndəsinin rəhbərlik etməsinə biganə deyilik. Bu məsələlərin tərəfdaşlar və dostlar arasında müzakirəsi təbiidir. Biz beynəlxalq siyasətin digər məsələlərini də müzakirə edirik. Bu da Ermənistanda hər hansı təşviş doğurmamalıdır. Ermənistanın Xarici İşlər Nazirliyinin bu yaxınlardakı bəyanatını beynəlxalq təcrübədə tamamilə yolverilməz hesab edirik. Xarici İşlər Nazirliyi digər ölkənin, xüsusilə də müttəfiq sayılan ölkənin prezidentinin hərəkət və sözlərini şərh edə və yanlış adlandıra bilməz. Yanlışlıq belə əməlləri özünə rəva bilən Ermənistanın Xarici İşlər Nazirliyinin davranışıdır. Görünür, bu, onların dünyanı və dünya xəritəsində öz yerlərini qeyri-adekvat dərk etmələrinin nəticəsidir”.*

## KTMT-də Azərbaycan böyük nüfuza sahibdir

Bununla yanaşı, o da aydındır ki, işğal siyasətinin davam etməsi fonunda Azərbaycanın gördüyü tədbirlər Ermənistanın iflasını daha sürətləndirəcək. Bu isə Ermənistanda çoxsaylı problemlərin miqyasını bir qədər də genişləndirəcək. Elə 20 il Ermənistana rəhbərlik etmiş oğru, kriminal rejimin hakimiyyətdən qovulmasını təmin edən məqamlardan biri də məhz Azərbaycanın həyata keçirdiyi təcrid siyasəti oldu.

İndi dünya miqyasında birmənalı qəbul olunan həqiqət budur ki, işğal siyasətinə son qoymayacağı təqdirdə qarşıdakı dövr ərzində Ermənistanı daha böyük problemlər gözləyir. Azərbaycan həm iqtisadi, həm hərbi, həm də demoqrafik cəhətdən Ermənistanı üstələməkdə davam edir. Bundan əlavə ölkəmiz ötən dövr ərzində yeni qlobal enerji və nəqliyyat layihələrinə start verməklə də Ermənistanın təcridini daha da dərinləşdirə bilib. Burada nəzərə almaq lazımdır ki, Azərbaycan diplomatiyası uğurlu addımları ilə konkret aspektlər üzrə dünyanın bir çox dövlətləri ilə səmərəli əməkdaşlıq sistemi yaradır. Ermənistan isə işğal siyasətnə görə bu sistemdən kənarda qalır.

KTM-nin son toplantısında da Ermənistan tərəfinin bütün cəhdlərinə baxmayaraq, təşkilat çərçivəsində müşahidəçi və tərəfdaş dövlətin hüquqi statusunu müəyyən edən sənədə imza atıldı. Belə vəziyyətdə maraq doğuran odur ki, qurum Azərbaycanı burada müşahidəçi qismində görməyi planlaşdırır. Bu da o deməkdir ki, faktiki olaraq Azərbaycanın regiondakı yerini, çəkisini, əhəmiyyətini nəzərə alaraq təşkilat öz nizamnaməsində dəyişiklik etdi. Təşkilat yanında müşahidəçi dövlət statusunu müəyyən etdi. Bu, Azərbaycan üçün hazırlanmış bir sənəddir. Ermənistan rəhbərliyi isə bu fonda gördü ki, KTMT-də Azərbaycanın çox böyük nüfuzu var.

Prezident İlham Əliyev bununla bağlı qeyd edib: *“Ermənistan tərəfi bəyan edib ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının problemləri mövcuddur. Yəqin ki, burada onlar haqlıdırlar. Bu problem, ilk növbədə, elə Ermənistanın özüdür və Ermənistanın törətdiyi problemlərdir. Biz, əlbəttə ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına baş katibin Ermənistan nümayəndəsinin təyinatını narahatlıqla qəbul etdik. Əvvəla, ona görə ki, bu dövlət Azərbaycana qarşı düşmənçilik siyasəti yürüdür. İkincisi də əməllərinə görə cinayət məsuliyyətinə cəlb olunmuş namizədin özünün şəxsiyyətinə görə. Burada da, deyildiyi kimi, bizdə personajın özünün hansı keyfiyyətlərə malik olması şübhə doğurmur. Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının keçmiş baş katibinin rəhbərlik etdiyi və Ermənistan ordusu üçün ağır məğlubiyyətlə nəticələnən Azərbaycan və Ermənistan ordularının döyüş qarşıdurmaları zamanı rüsvayçı davranışını xatırlamaq kifayətdir. Yəni, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı kimi mühüm beynəlxalq quruma bu şəxsin təyinatı müəyyən dərəcədə təşkilata hörmətsizlik idi... Buna görə də bir daha demək istəyirəm ki, əgər Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının hər hansı bir problemi varsa, o da Ermənistandır və onun yaratdığı problemlərdir”.*

## Ermənistanı daha böyük sarsıdıcı zərbələr gözləyir

Bu gün güc yoluna əl atılmasının nə ilə nəticələnəcəyini əslində, ermənilər də yaxşı bilir. Ən azından o fonda ki, ötən dövr ərzində Ermənistanda bütün sahələr üzrə ciddi tənəzzül qeydə alınıb, ölkənin formal müstəqilliyi də aradan qalxmaq təhlükəsi ilə üzləşir. Ermənistandan fərqli olaraq keçən illər ərzində davamlı şəkildə güclənməyi bacaran Azərbaycan inkişaf parametrlərinə görə düşmən ölkəni xeyli qabaqlayıb. İndi real mənzərə ondan ibarətdir ki, kifayət qədər güclənən Azərbaycan hərbi güc yolu ilə işğal faktını qısa müddətdə tam aradan qaldırmaq iqtidarındadır. Ermənistanda açıq etiraf olunur ki, Azərbaycan indi kifayət qədər yaxşı təchiz edilmiş silahlı qüvvələr yarada bilib. Amma hələlik Ermənistanın yeni iqtidarı da bu məsələdə birmənalı mövqe sərgiləmir.

Belə vəziyyətdə Bakı Ermənistanı sarsıdan addımlar atmaqda davam edəcək və Prezident İlham Əliyev bu xüsusda konkret mesajlar verib: *“Biz Belarusdan hərbi texnika alırıq və onun keyfiyyətindən, göstəricilərindən çox razıyıq. Belarus hərbi sənaye sahəsində də çox yüksək səviyyə nümayiş etdirir və biz hərbi-texniki sahədə əməkdaşlığı davam etdirmək niyyətindəyik. Doğrudur, Siz bilirsiniz ki, bu, Ermənistanda, belə deyim, psixoz tutmalara səbəb olur. Bu da son dərəcə təəccüblüdür. Çünki Azərbaycan təkcə Belarusdan silah almır. Azərbaycana hərbi texnikanın ən iri tədarükçüsü Rusiyadır. Həmçinin biz Türkiyədən, İsraildən, Pakistandan, Avropa ölkələrindən böyük həcmdə silah-sursat və texnika alırıq. Buna görə də təəccüblüdür ki, iradlar müstəsna olaraq Belarusa göstərilir. Mən hesab edirəm ki, bu, Ermənistanda Belarusa qarşı acizlik kompleksinin təzahürüdür. Səbəblər də kifayət qədər sadədir. Həm Belarus, həm də Ermənistan eyni vaxtda müstəqillik əldə ediblər. Bu gün Ermənistan dünyanın ən yoxsul ölkələrindən biridir və həyatın girdabındadır. İyirmi il ərzində öz xalqını istismar və qarət edən hakimiyyətin erməni xalqı tərəfindən devrilməsi bunun parlaq təzahürüdür”.*

Yuxarıda qeyd olunduğu kimi, Azərbaycana qarşı yürütdüyü təcavüz və işğal siyasətinə görə Ermənistan bu gün geosiyasi və geoiqtisadi baxımdan özünütəcrid vəziyyətindədir. Ermənistanın düşdüyü bu vəziyyətdən yeganə çıxış yolu Azərbaycana qarşı işğala son qoyması, qonşu dövlətlərlə sivil münasibətlər qurmasıdır. Əks təqdirdə, bilməlidir ki, bütün regional layihələrdən, inteqrasiya proseslərindən kənarda qalan Ermənistan işğalçılıq siyasətindən əl çəkməyənə qədər istənilən hakimiyyət dəyişikliyi bu ölkədəki problemləri aradan qaldırmaq iqtidarında deyil.

**_Elçin CƏFƏROV,_**
**_“Azərbaycan”_**

# XİN: “Bako Saakyanın Fransaya səfəri oyuncaq qurumun beynəlxalq səviyyədə təşviqinə yönələn növbəti uğursuz cəhddir”

“Özünü Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış qondarma rejimin rəhbəri kimi təqdim edən Bako Saakyanın Fransaya səfəri oyuncaq qurumun beynəlxalq səviyyədə təşviq edilməsinə yönələn növbəti uğursuz cəhddir. Bu səfərin həyata keçirilməsi üçün imkan yaradan və qanunsuz rejimin nümayəndələrini qəbul edən Fransa bu addımı ilə nəinki Azərbaycan və Fransa arasında mövcud olan ikitərəfli əməkdaşlıq münasibətlərinin ruhuna və imzalanmış sazişlərin dilinə uyğun davranmır, eyni zamanda, beynəlxalq hüququn norma və prinsiplərinin aliliyinə və öz üzərinə götürdüyü beynəlxalq öhdəliklərə hörmətsizlik nümayiş etdirir”.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin açıqlamasında yer alıb.

Açıqlamada deyilir: “Fransanın Azərbaycanın işğal edilmiş torpaqlarında yaradılmış qondarma rejimin təbliğinə şərait yaratması bu ölkənin BMT Təhlükəsizlik Şurasının daimi üzvü və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesində vasitəçilik edən ATƏT-in Minsk qrupunun həmsədr ölkələrindən biri qismində obyektivliyini və qərəzsizliyini ciddi sual altına alır.

Fransanın Azərbaycanın ərazilərinin işğalı və yüz minlərlə azərbaycanlının qanlı etnik təmizləməyə məruz qalmasında bilavasitə əli olan insanların təntənəli şəkildə qəbul edilməsinə icazə verməsi bu ölkənin Azərbaycan ictimaiyyətində nüfuzuna ciddi zərbə vurur. Azərbaycan qeyd olunan məsələ ilə bağlı Fransa tərəfinə diplomatik kanallarla qəti etirazını bildirəcək.

Fransa tərəfindən davamlı əsasda yürüdülən və ikili standartlara əsaslanan bu yanaşma Azərbaycanı Fransa ilə əlaqələri nəzərdən keçirməyə vadar edir”.

# Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Bako Saakyanın Fransaya qanunsuz səfərini pisləyir

“Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması” İctimai Birliyi Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin “rəhbəri” Bako Saakyanın Fransaya qanunsuz səfəri ilə bağlı bəyanat yayıb.

İctimai Birlikdən AZƏRTAC-a daxil olan bəyanatın mətnində deyilir:

- Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması olaraq, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış qanunsuz rejimin təmsilçisi kimi özünü təqdim edən Bako Saakyanın Fransaya səfərini kəskin şəkildə pisləyir və hiddətimizi ifadə edirik.

ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi Fransanın öhdəliklərinə zidd olmasına baxmayaraq, bu səfərin qarşısının alınması üçün heç bir tədbir görülmür. Fransa hökumətinin dəfələrlə təkrarlanan bu kimi qeyri-qanuni əməllərə passiv seyrçi münasibəti və təsirli addımlar atmaması qəbuledilməz haldır.

Fransa Cənubi Osetiya, Abxaziya, Krım və Dnestryanı bölgələrindən olan şəxslərə Fransa ərazisinə daxil olmağa icazə verilmədiyi halda, Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin nümayəndələrinə xüsusi rəğbət göstərir. Həmçinin Fransa hökuməti Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının etnik təmizləməyə məruz qaldığını və fundamental hüquqlarının kobud şəkildə pozulduğunu çox yaxşı bildiyi halda, bu kimi birtərəfli və separatizm xarakterli addımların həyata keçirilməsinə göz yumur, insan hüquqlarının ayrılmazlığı və bərabərhüquqluluq prinsiplərini pozur. Bu mənada, Fransa müxtəlif təəssübkeşlik hissləri ilə ayri-seçkiliyə əsaslanan siyasət yürüdür.

Azərbaycan vətəndaşları Fransa səfirliyindən viza almaqda çətinlik çəkdikləri və bürokratik süründürməçiliklə üzləşdikləri halda, müharibə cinayətkarı olan Bako Saakyan saxta sənədlərlə Şengen viza tələblərini kobud şəkildə pozaraq Fransa ərazisinə daxil olur. Bu qanunsuz səfərin həyata keçirilməsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həllinə maneə olmaqla yanaşı, Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin təşviqinə xidmət edir. Nəhayət, Fransa tərəfi başa düşməlidir ki, bu kimi qərəzli və qeyri-obyektiv əməllər Dağlıq Qarabağın Azərbaycan icması və bütövlükdə Azərbaycan ictimai rəyində Fransanın nüfuzuna ciddi xələl yetirir. Əgər Fransa münaqişənin həllinə həqiqətən, töhfə vermək niyyətindədirsə, onda ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi kimi qərəzsizliyini təmin etməli, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinə uyğun olaraq Azərbaycanın işğal olunmuş ərazilərindən Ermənistan qoşunlarının çıxarılmasına çalışmalı və Dağlıq Qarabağın erməni və azərbaycanlı icmalarını birlikdə Parisə dəvət etməli və bu iki icma arasında bərabərhüquqlu əsasda etnik barışığı və dialoqu dəstəkləməlidir.

Fransa tərəfi də bilməlidir ki, etnik təmizləmə siyasətinə məruz qalmış və doğma torpaqlarından qovulmuş azərbaycanlıların yalnız öz doğma ərazilərinə qayıtması halında regionda dayanıqlı və ədalətli sülhün təmin olunması mümkün ola bilər.

# Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi Masallıda vətəndaşları qəbul edib

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-leytenant Arzu Rəhimov Masallıda Biləsuvar, Cəlilabad və Masallı rayonlarının sakinlərini qəbul edib. AZƏRTAC xəbər verir ki, qəbulda 20 vətəndaş iştirak edib. Vətəndaşların müraciətləri daha çox Xidmətin aidiyyəti şöbələrində işə və ya həqiqi hərbi xidmətə qəbul, övladlarının gələcək xidmət yerinin müəyyənləşdirilməsi, veteran adının və vəsiqəsinin verilməsinə dair olub. Qəbul zamanı irəli sürülən bəzi məsələlər yerindəcə həllini tapıb, qanunvericiliyin tələbləri vətəndaşlara izah edilib. Araşdırılması tələb olunan müraciətlər nəzarətə götürülüb və müvafiq araşdırmalardan sonra cavablandırılacağı bildirilib.

Vətəndaşların Xidmətin fəaliyyət istiqamətinə aid olmayan məsələlərlə bağlı müraciətləri müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

# Kulturoloji paradiqmalar və yeniləşən Azərbaycan

**BSU-nun Türkiyənin Reytinq Akademiyası ilə birgə təşkil etdiyi "Kulturoloji paradiqmalar və yeniləşən Azərbaycan" mövzusuna həsr edilən elmi konfransda dövlət rəsmiləri, səfirlər, paytaxt Bakıda fəaliyyət göstərən bir sıra universitetlərin professorları, təhsil ekspertləri və KİV təmsil olunurdu.**



BSU-nun rektoru, professor Nurlana Əliyeva tədbiri açaraq konfransın bu gün üçün çox aktual olan bir problemə həsr edildiyini bildirdi. Xüsusi olaraq qeyd edildi ki, müasir Azərbaycan ümummilli lider Heydər Əliyevin müəyyən etdiyi və bu gün Prezident İlham Əliyevin böyük əzm və cəsarətlə həyata keçirdiyi məqsədyönlü strategiyanın uğuru sayəsində sosial-iqtisadi sahədə dünyanın sürətlə inkişaf edən dövlətinə çevrilib: "Regionlarımızın inkişafı, yeni iş yerlərinin açılması, mədəniyyət, elm, təhsil, səhiyyə kimi xalqımızın həyatında önəmli əhəmiyyət daşıyan sahələrin yenidən qurulması Azərbaycanın müasirləşməsi deməkdir. Ən ağrılı yerimiz olan Dağlıq Qarabağ probleminin həlli də məhz ölkəmizin bütün sahələrdə inkişafı ilə sıx bağlıdır ki, tezliklə ona da nail olacağıq".

Azərbaycanın dünyada mövqeyinin ildən-ilə möhkəmləndirildiyinə diqqət çəkən professor onu da xatırladıb ki, artıq bəşəriyyəti maraqlandıran genişspektrli dialoqların, fikir mübadilələrinin, müzakirələrin mərkəzinə çevrilən ölkəmizin paytaxtı yalnız əsrlərin və mədəniyyətlərin qovuşuğu deyil, həm də bir sıra beynəlxalq humanitar forumların keçirildiyi məkan kimi də tanınır: "Ölkəmizin paytaxtı artıq bir neçə ildir ki, humanitar və inteqrativ impulsların yaradılması ilə yanaşı, beynəlxalq səviyyəli çağırışlar da həyata keçirir, sivilizasiyalar arasında körpü rolu oynayır, nəzəri və praktiki bilik mübadiləsini həyata keçirmək məqsədilə konstruktiv debatlara evsahibliyi edir. Beynəlxalq təşkilatlara, dünya ölkələrinə və ayrı-ayrılıqda hər bir şəxsə ünvanlanmış tövsiyələr və müraciətlər buradan səsləndirilir, yayımlanır. Bu il keçirilən VI Beynəlxalq Humanitar Forumu da bəşəriyyət qarşısında təhsilin və elmin insan kapitalının inkişafına istiqamətləndirilməsini, innovasiyaların iqtisadiyyatın yeni mənbəyinə çevrilməsini, cəmiyyətdə sabitliyin bərqərar olması üçün multikulturalizm siyasətinin həyat tərzi kimi gerçəkləşdirilməsini, sülh və davamlı inkişaf naminə mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsini prinsipial məsələ olaraq irəli sürmüşdür. Bugünkü konfrans da məhz elm və təhsil sahəsində həmin forumun tövsiyə və tapşırıqlarının mahiyyətindən doğmuşdur".

Məruzəçi "Kulturoloji paradiqmalar və yeniləşən Azərbaycan" mövzusunda olan konfransı Azərbaycanın digər xarici ölkələrlə humanitar sahədə qurulan əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində atılan mühüm addım kimi dəyərləndirdi.

Milli Televiziya və Radio Şurasının sədr müavini, "Kaspi" qəzetinin təsisçisi, filologiya üzrə fəlsəfə doktoru Sona Vəliyeva çıxışına başlayarkən dahi Hüseyn Cavidin bəşəriyyətə sülh çağırışı kimi səslənən "Kəssə hər kəs tökülən qan izini, Qurtaran dahi odur yer üzünü" beytini xatırladaraq, xalqımızın tarixən multikultural dəyərləri qoruyub saxlaması ilə tanındığını xüsusi vurğuladı. Sona Vəliyeva onu da qeyd etdi ki, dünyada sülhün təbliği mədəniyyət və təhsildən daha çox asılıdır. Buna görə də ölkəmizdə hər iki sahənin inkişafı dünya xalqlarının da marağını kəsb edir və Azərbaycanın nəinki paytaxtını, hətta regionlarında da beynəlxalq tədbirlərin keçirilməsi üçün zəruri şəraitin mövcudluğunu nümunə çəkirlər. Bütün bunlar isə dövlətimizin humanitar siyasətinin prioritetlərindəndir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bu istiqamətdəki misilsiz xidmətləri konfrans iştirakçıları tərəfindən də yüksək dəyərləndirildi.

BDU-nun professoru, əməkdar elm xadimi Şahlar Əsgərov, Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov, Türkiyə Cümhuriyyəti Egey Universitetinin professoru Fikrət Türkmən, L.N.Qumilyov adına Avrasiya Milli Universitetinin professoru Şolpan Zharinbekova, Türkiyənin Reytinq Akademiyasının professoru Turqay Berksoy, həmin ali təhsil müəssisəsinin dosenti Özge Uysal Şahin və digərlərinin çıxışlarında Azərbaycanın bu gün multikultural dəyərlərin, dinlərarası və mədəniyyətlərarası dialoqun gücləndirilməsində göstərdiyi fəallığı önə çəkdilər. Xüsusi olaraq qeyd edildi ki, elmi konfransın əhəmiyyəti olduqca böyükdür. Çünki respublikamızda keçirilən müxtəlif beynəlxalq tədbirlər, istər idman yarışları, istərsə də humanitar forumlar Azərbaycanın dünyada güclü mövqeyə malik olmasının göstəricisidir. Bu, eyni zamanda dünyaya bütün istiqamətlərdə olduğu kimi, elm və təhsil sahəsinin də inteqrasiyası deməkdir. Bütün bunlar ulu öndər Heydər Əliyevin milli mədəniyyətimizin bəşəri ideyalarının gerçəkləşdirilməsi baxımından mühüm və vacib məsələlərdəndir.

Konfrans iştirakçıları tələbələrin əl işlərindən ibarət sərgi ilə də tanış olublar.

***Məhəmməd NƏRİMANOĞLU, "Azərbaycan"***

# Türkiyə universitetləri ilə əməkdaşlığa həsr olunan beynəlxalq konfrans keçirilib

"UNEC və Türkiyə universitetlərinin əməkdaşlıq istiqamətləri: mövcud vəziyyət və perspektivlər" mövzusuna həsr olunan beynəlxalq konfrans keçirilib.



UNEC-in təşkilatçılığı və Türk Dünyası Araşdırmalar Vəqfinin (TDAV) dəstəyi ilə keçirilən konfransda universitetin rəhbərliyi və professor-müəllim heyəti ilə yanaşı, Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral, Türkiyə Cümhuriyyətinin gənclər və idman naziri dr.Mehmet Muharrem Kasapoğlu, Türk Dünyası Araşdırmalar Vəqfinin rəhbəri Közhan Yazqan, Türkiyə-Azərbaycan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri, deputat Şamil Ayrım, İstanbul Universitetinin rektoru, professor Mahmut Ak və digər nüfuzlu qonaqlar iştirak ediblər.

UNEC-in rektoru, professor Ədalət Muradov Azərbaycan Dövlət İqtisad Universitetində türk dilində tədrisi türkçülüyə verilən önəm və dəyərin ən böyük göstəricilərindən biri adlandırıb. Türk dilində tədrisin TDAV-ın mərhum rəhbəri, professor Turan Yazqanın təşəbbüsü ilə yaradıldığına diqqət çəkən rektor Türk Dünyası İqtisadiyyat Fakültəsinin (TUDİFAK) hədəflərindən söz açıb: "Məqsədimiz TUDİFAK-ın türk dünyasına və dünya miqyasında keyfiyyət tələblərinə cavab verə biləcək təhsil məkanına çevrilməsidir. Son hədəf isə fakültə bazasında yeni universitet yaradılması və türk dünyası gənclərinin həmin universitetdə təhsil almasına şərait yaratmaqdır". Fakültədə bu ildən yeni ixtisasların açıldığını bildirən rektor fakültəyə qəbulda ötən dövrlərlə müqayisədə yüksək bal toplayan abituriyentlərin sayının artdığını qeyd edib. Ə.Muradov TUDİFAK-da təhsilin keyfiyyətinin və cəlbediciliyinin artırılması üçün Türkiyə universitetləri ilə ikili diplom proqramlarının reallaşdırılmasının vacibliyini vurğulayıb.

UNEC-in Türkiyənin nüfuzlu universitetləri ilə əməkdaşlıq etdiyindən söz açan rektor birgə dərsliklərin hazırlanmasının və elmi məqalələrin tanınmış dərgilərdə çap olunmasının hər iki ölkənin təhsilinin keyfiyyətinin artırılmasında mühüm rol oynayacağını bildirib.

Konfransda çıxış edən Erkan Özoral Türkiyə-Azərbaycan münasibətlərindən söz açıb. Hazırda Azərbaycanın dünya arenasında öz layiqli yerini tutduğunu bildirən səfir iki ölkənin qardaşlıq və dostluq münasibətləri ilə yanaşı, bütün sahələrdə uğurlu əməkdaşlıq etdiyini bildirib. "Hədəfimiz hər iki ölkənin akademik səviyyəsinin daha da yüksəlməsidir" deyən türkiyəli diplomat konfransın təşkilinin bu istiqamətdə əhəmiyyətli rol oynayacağına əminliyini vurğulayıb.

Dost və qardaş ölkədə olmaqdan məmnunluğunu ifadə edən Mehmed Muharrem Kasapoğlu Türkiyənin bütün sahələrdə Azərbaycanı dəstəklədiyini bildirib. Bu münasibətlərin təməlinin tarixi köklərlə bağlı olduğunu söyləyən M.Kasapoğlu ümummilli lider Heydər Əliyevin bu istiqamətdə əvəzsiz rol oynadığını diqqətə çatdırıb. Nazir hər iki dövlət arasında imzalanan mühüm iqtisadi layihələrdən söz açıb.

Millət vəkili Şamil Ayrım professor Turan Yazqanın elm və təhsil sahəsindəki xidmətlərindən bəhs edib. T.Yazqanın milli-mənəvi dəyərlərə bağlı gənclərin yetişməsində böyük xidmətlər göstərdiyini bildirib.

İstanbul Universitetinin rektoru, professor Mahmud Ak mərhum professor Turan Yazqanın türk dünyasında, o cümlədən Azərbaycanda təhsilin inkişafına böyük önəm verdiyinə diqqət çəkərək, bu siyasətin əsas məqsədinin türk millətini birləşdirmək olduğunu bildirib.

Konfransda Atatürk liseyinin şagirdlərinin ifasında şeirlər səsləndirilib.

Beynəlxalq konfrans "UNEC və Türkiyə universitetlərində akademik fəaliyyətin keyfiyyətinin artırılması istiqamətində əməkdaşlıq istiqamətləri" mövzusunda panel müzakirələrlə davam edib.

***"Azərbaycan"***

## BİLDİRİŞ

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu Əlilliyi olan şəxslərin və sağlamlıq imkanları məhdud uşaqların X Ümumrespublika yaradıcılıq-sərgi müsabiqəsinin keçirilməsi ilə bağlı göstəriləcək xidmətlərin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir**

Maraqlanan təşkilatlar: (012) 434-05-20 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 22 noyabr 2018-ci il saat 17:00 tarixədək qəbul olunur.

**Ünvan: Bakı şəhəri, H.Zərdabi pr.80 Əlaqəli şəxs:**

***Tender komissiyası***

## BİLDİRİŞ

**Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Görmə imkanları məhdud uşaqlar üçün müyəssər formatlı nəşrlərin hazırlanması", "Xüsusi qayğıya ehtiyacı olan uşaqların asudə vaxtının təşkili", "Sağlamlıq imkanları məhdud uşaqlarla davranış üzrə valideynlərə dəstək göstərilməsi" adlı təkrar müsabiqələr və "Sağlamlıq imkanları məhdud uşaqlar üçün maarifləndirmə tədbirləri", "Eşitmə və nitq qabiliyyəti olmayan sağlamlıq imkanları məhdud uşaqlar üçün kütləvi informasiya vasitələri vasitəsilə surdoloji maarifləndirmə xidmətlərinin aparılması" adlı müsabiqələr keçirir**

**Müsabiqələrdə qeyri-hökumət təşkilatları iştirak edə bilərlər.**
**İştirak haqqı yoxdur.**

Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün Bakı şəhəri, H.Zərdabi pr. 80 ünvanına yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri H.Zərdabi pr. 80 ünvanına 27 noyabr 2018-ci il saat 17:00-dan gec olmayaraq təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 28 noyabr 2018-ci il saat 11:00-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunda keçiriləcəkdir.

**Əlaqə telefonu: (012) 434-05-20.**

***Müsabiqə komissiyası***

# Azərbaycan ilə Türkiyə arasında idman sahəsində əməkdaşlığın inkişafına dair fikir mübadiləsi aparılıb

Ölkəmizdə səfərdə olan Türkiyə Respublikasının gənclər və idman naziri Mehmet Muharrem Kasapoğlunun başçılıq etdiyi nümayəndə heyəti ilə noyabrın 15-də Azərbaycan Milli Olimpiya Komitəsində (MOK) görüş keçirilib.



MOK-dan AZƏRTAC-a bildiriblər ki, görüşdə MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə, gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov və MOK baş katibinin müavini Azər Əliyev iştirak ediblər.

MOK ilə qardaş ölkənin Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi arasında sıx əlaqələrin olduğunu vurğulayan Ç.Hüseynzadə bu əməkdaşlığın gələcəkdə də uğurla davam edəcəyinə əminliyini bildirib. Komitənin fəaliyyəti və uğurları barədə qonaqlara ətraflı məlumat verən vitse-prezident deyib ki, Olimpiya Oyunlarında nəticələrini daha da yaxşılaşdıran Azərbaycan milli komandası sonuncu - Rio Olimpiadasında 18 medal, o cümlədən 1 qızıl, 7 gümüş və 10 bürünc qazanıb. Bu, Azərbaycanın idman ölkəsi olduğunu bir daha sübut edir.

Nazir Mehmet Muharrem Kasapoğlu Azərbaycan ilə Türkiyə arasında bütün istiqamətlərdə əməkdaşlığın sürətli inkişafının idman sahəsində də müşahidə edildiyini vurğulayıb. Qonaq ölkələrimiz arasında idman və gənclər sahələrində əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün böyük potensialın olduğunu vurğulayıb. Türkiyəli nazir Bakının ötən il IV İslam Həmrəyliyi Oyunlarına yüksək səviyyədə evsahibliyi etdiyini diqqətə çatdıraraq, növbəti - V İslamiadanın İstanbulda təşkil olunacağını bildirib. Qeyd edilib ki, bu, türk dünyasında idmanın inkişafda olduğunu və ona marağın artdığını bir daha göstərir.

Söhbət zamanı müvafiq qurumlar arasında əlaqələrin inkişafına dair fikir mübadiləsi aparılıb, gələcək planlar müzakirə olunub.

# "AzerGold" QSC "Caspian Ecology 2018" sərgisində iştirak edib

"AzerGold" QSC 14-16 noyabr tarixlərində keçirilən 9-cu Azərbaycan Beynəlxalq Ətraf Mühit "Caspian Ecology 2018" sərgisində iştirak edib.




Ekologiya və ətraf mühitin mühafizəsi sahəsində həm Xəzər, həm də Qafqaz regionu üçün mühüm olan bu tədbirə qatılaraq qapalı səhmdar cəmiyyəti qısa müddət ərzində əldə etdiyi uğurları ictimaiyyətlə bölüşüb. Həmçinin ASC-nin əsas dəyərlərindən biri olan ekoloji siyasət və korporativ sosial məsuliyyət çərçivəsində həyata keçirilən ekoloji tədbirlər və sosial layihələr haqqında geniş məlumat verilib.

Sərginin qonaq və iştirakçıları "AzerGold" QSC tərəfindən tərtib edilən monitorinq proqramı çərçivəsində hasilat və mədən sahələrində həyata keçirilən ekoloji tədbirlər, istehsalat prosesinin formalaşdırdığı bütün növ tullantıların qanunamüvafiq şəkildə idarə olunması, istehsalat sahəsi və ətraf ərazilərdə mütəmadi olaraq keçirilən yaşıllaşdırma və iməcilik tədbirləri, Çovdar filiz emalı sahəsi yaxınlığında yerləşən qəsəbələrdə həyata keçirilən sosial layihələr və əhaliyə dəstək kampaniyaları haqqında ətraflı məlumat əldə ediblər. Bununla yanaşı, "AzerGold" QSC-nin mütəxəssisləri sərginin digər iştirakçıları ilə keçirilən ikitərəfli görüşlərdə ətraf mühitin mühafizəsi, ekoloji tarazlığın qorunması, təbii resursların səmərəli istifadə edilməsi kimi mövzular ətrafında geniş fikir mübadiləsi aparıb.

Qeyd edək ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən təşkil edilən və IDEA (Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq) İctimai Birliyi tərəfindən dəstəklənən sərgidə bu il müxtəlif yerli qurum və təşkilatlarla yanaşı, Almaniyanı, Böyük Britaniyanı, Türkiyəni, Ukraynanı və digər ölkələri təmsil edən şirkətlər iştirak ediblər.

***"Azərbaycan"***

## Düzəliş

"Azərbaycan" qəzetinin 15 noyabr 2018-ci il tarixli nömrəsinin üçüncü səhifəsində dərc edilmiş aşağıdakı fərman və qanunların başlıqları belə oxunmalıdır:

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Çili Respublikasının Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələr haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı.

"Rəsmi statistika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu.

*"Azərbaycan"*

# Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi, Ağbulaq, Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Qaraqaşlı, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Kürdlər, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# "Azercell"in dəstəyi ilə IV Uşaq Paralimpiya Oyunları keçirilib

Sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiya olunmasına dəstək vermək və onların idmana həvəsini artırmaq məqsədilə "Azercell Telekom" MMC-nin dəstəyi ilə fəaliyyət göstərən Uşaq Paralimpiya Komitəsi tərəfindən ölkəmizdə növbəti dəfə Uşaq Paralimpiya Oyunları təşkil edilib.




Milli Paralimpiya Komitəsinin təşkilatçılığı, "Azercell Telekom" MMC-nin və UNICEF-in dəstəyi ilə IV dəfə keçirilən Uşaq Paralimpiya Oyunları 13-14 noyabrda Sumqayıt şəhərində yerləşən Respublika Paralimpiya İdman Kompleksində 100-dən çox paralimpiyaçı uşağı bir araya gətirib. Bakıdan, eləcə də bölgələrdən oyunlara qatılan paralimpiyaçılarımız idmanın 8 növü üzrə öz güclərini sınayıblar. Yerli paralimpiyaçılarımızdan əlavə, IV Uşaq Paralimpiya Oyunlarında Gürcüstandan sağlamlıq imkanları məhdud 9 idmançı da 3 idman növündə mübarizə aparıb.

Oyunların rəsmi açılış mərasimi 14 noyabr 2018-ci il tarixdə Sumqayıt şəhərində yerləşən Respublika Paralimpiya İdman Kompleksində keçirilib. Açılış zamanı çıxış edən "Azercell Telekom"un prezidenti Vahid Mürsəliyev mütəmadi keçirilən bu turnirlərin köməyi ilə sağlamlıq imkanları məhdud uşaqların idmanla məşğul olmaq, müxtəlif beynəlxalq yarışlarda Azərbaycanı təmsil etmək şansını qazandığını sevindirici hal kimi qiymətləndirib. Bunun uşaqlara həm dünya idmanına interqrasiya etməyə, həm də gələcəkdə uğurlu idmançı karyerasını qurmağa kömək edə biləcəyini bildirib. Bu turnirin təşkilində iştirak etmiş bütün təşkilat və komitə üzvlərinə minnətdarlığını bildirərək, iştirakçılara final oyunda uğurlu və qızğın mübarizə arzulayıb. Açılış mərasimində Beynəlxalq Paralimpiya Komitəsinin Prezidenti Endrü Parsons da iştirak edib.

Qeyd edək ki, beynəlxalq təcrübədə ilk dəfə olaraq 2013-cü ildə Azərbaycan Milli Paralimpiya Komitəsinin nəzdində Uşaq Paralimpiya Komitəsi yaradılıb. 2014-cü ildən etibarən "Azercell Telekom" MMC komitənin inkişaf etdirilməsinə dəstək verir. Hazırda komitədə 100-dən çox sağlamlıq imkanları məhdud uşaq idmana cəlb edilib. Onlar idmanla məşğul olmaq, müxtəlif beynəlxalq yarışlarda Azərbaycanı təmsil etmək imkanı qazanıb.

"Azercell Telekom" fəaliyyətə başladığı ilk gündən sosial məsuliyyət faktoruna ciddi önəm verib. Bu günə qədər minlərlə sosial layihəyə dəstək olan "Azercell" ölkədə təhsil, incəsənət, idman, elm, texnologiyaların inkişafı və rifahı uğrunda çalışıb. "Azercell" Korporativ Sosial Məsuliyyət istiqamətindəki fəaliyyətinə görə dəfələrlə yerli və beynəlxalq mükafatlara layiq görülüb.

***"Azərbaycan"***

Təkrar

## Azərbaycan Respublikası Dövlət Turizm Agentliyi

### turizm məntəqələrinin infrastrukturunun inkişaf etdirilməsi və konsaltinqi xidmətlərinin satın alınması ilə əlaqədar

### *açıq tender elan edir*

**Tender 3 LOT üzrə keçirilir:**

**LOT 1.** Turizm məntəqələrinin infrastrukturunun inkişaf etdirilməsi və konsaltinqi xidmətlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Dövlət Turizm Agentliyi, Landmark 1, 3-cü mərtəbə, Nizami küç., 96 E (Əlaqələndirici şəxs: Vüqar Hüseynov, telefon: (050) 303-50-20) ünvanından ala bilərlər.

**İştirak haqqı: 1000 manat**
**Dövlət Turizm Agentliyi**
**Hesab: AZ33PAHA38060AZNHC0100090832**
**VÖEN: 1404365471**
**Bank: PAŞA Bank ASC**
**Kodu: 505141**
**VÖEN: 1700767721**
**M/H: AZ82NABZ01350100000000071944**
**S.W.I.F.T: PAHAAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *digər sənədlər.*

Əsas şərtlər toplusunda nəzərdə tutulmuş sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **30.11.2018-ci il saat 15:00-a qədər,** tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **14.12.2018-ci il saat 15:00-a qədər** Dövlət Turizm Agentliyi, Landmark 1, 3-cü mərtəbə, Nizami küç., 96 E ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **17.12.2018-ci il tarixdə saat 15:00-da** Dövlət Turizm Agentliyi, Landmark 1, 3-cü mərtəbə, Nizami küç., 96 E ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

Təkrar

## Azərbaycan Texniki Universiteti

### inventarın, avadanlığın və digər maşın və avadanlıqların satın alınması məqsədilə

### *açıq tender elan edir*

**Tender 3 LOT üzrə keçirilir:**

**LOT - 1.** İnventarın satın alınması.
**LOT - 2.** Avadanlığın satın alınması.
**LOT - 3.** Digər maşın və avadanlıqların satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq göstərilən LOT-lar üzrə öz tender təkliflərini möhürlənmiş ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsi və müqayisə edilməsi bal sistemi ilə həyata keçiriləcəkdir.

**İştirak haqqı: hər LOT üzrə 100 (bir yüz) manat.**

İddiaçılar iştirak haqqı məbləğini aşağıda göstərilən hesaba ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, H.Cavid prospekti, 25-də yerləşən AzTU-dan (əlaqələndirici şəxs: Orxan Hümbətov, telefon (012) 538-94-21) ala bilərlər.

**Təşkilat: Azərbaycan Texniki Universiteti**
**Hesab: Az12AIIB33070019443307884103**
**VÖEN: 1300231171**
**Hesab: "Kapital Bank" ASC-nin Yasamal filialı**
**Kod: 200037**
**VÖEN (bank): 9900003611**
**M/H: Az37NABZ01350100000000001944**
**SWIFT: Aİ İBAZ 2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *müəssisənin hüquqi sənədləri;*
- *vergi orqanından borcu olub-olmaması barədə arayış;*
- *DSMF-dən borcu olub-olmaması barədə arayış;*
- *iştirakçının son bir ildəki maliyyə vəziyyəti haqqında hesabatın surəti;*
- *bank arayışı rekvizitlərlə birlikdə;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank sənədi;*
- *tender təklifi təminatı (zərflər açıldığı tarixdən ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətinin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır).*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və təklifin bank təminatı istisna olmaqla) **30 noyabr 2018-ci il saat 15:00-a** qədər təqdim etməlidirlər.

Tender təklifi və təklifin bank təminatı **14 dekabr 2018-ci il saat 15:00-a** qədər təqdim olunmalıdır.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri **17 dekabr 2018-ci il saat 11:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır. İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi

### "Sumqayıt Kimya Sənaye Parkı" MMC Sumqayıt Kimya Sənaye Parkının 167.66 hektar, 127.96 hektar və Pirallahı Sənaye Parkının 20 hektar ərazisində əmlakın mühafizəsi üzrə iş və xidmətlərin satın alınması ilə əlaqədar

### *açıq tender elan edir*

**Tender 1 LOT üzrə keçirilir:**

Sumqayıt Kimya Sənaye Parkının 167.66 hektar, 127.96 hektar və Pirallahı Sənaye Parkının 20 hektar ərazisində əmlakın mühafizəsi üzrə iş və xidmətlərin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər LOT üçün aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirchi Tower" ünvanında yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər. Əlaqələndirici şəxs - Abbas Mamedov (telefon: 012-488-80-65).

**İştirak haqqı: 500 manat.**
**H/h: AZ65PAHA38090AZNHC0190006581**
**VÖEN: 2902478331**
**Bank: "PAŞA Bank" ASC**
**Bankın VÖEN-i: 1700767721**
**Bankın kodu: 505141**
**SWIFT: PAHAAZ22**
**M/h: AZ82NABZ01350100000000071944**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı **30** bank günü qüvvədə olmalıdır);*
- *Tender təklifi dəyərinin **1%-i** həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddəti bitdikdən sonra **30** bank günü);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq dövlət orqanlarından arayış;*
- *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *Tələb olunan digər zəruri sənədlər.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **18 dekabr 2018-ci** il tarixinə qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **26 dekabr 2018-ci** il, saat 18:00-dək "Sumqayıt Kimya Sənaye Parkı" MMC-nin Bakı şəhəri, Xocalı prospekti 37, "Demirchi Tower" ünvanında yerləşən ofisinə yazılı təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **27 dekabr 2018-ci** il, saat 12:00-da Bakı şəhəri, Xocalı prospekti, 37, "Demirchi Tower" ünvanında yerləşən ofisində açılacaqdır.

Zərflərin açılmasında iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***





## Koreya-Azərbaycan ikitərəfli əməkdaşlıq tədbiri

Koreya Respublikası Səfirliyinin Ticarət şöbəsi - Koreya Ticarət və İnvestisiyaların Təşviqi Agentliyi (KOTRA) 20 noyabr 2018-ci il tarixdə "Park Inn" hotelinin "Dan Ulduzu" zalında keçiriləcək Koreya-Azərbaycan ikitərəfli əməkdaşlıq tədbiri barədə Sizə məlumat verməkdən məmnundur. Tədbirdə müxtəlif sahələrdə ixtisaslaşmış Koreya şirkətləri iştirak edəcək.

**İştirakçı şirkətlər aşağıdakılardır:**

| | |
|---|---|
| **GS Global Corporation** | Enerji sektoru və tikinti |
| **BHI.,LTD.** | Neft və qaz boilerləri, istilik sistemləri, istilik elektrik stansiyaları |
| **GV International** | Toz, çirk və yanğına qarşı alüminium və şəffaf üzlük boyalar |

Nəzərinizə çatdırmaq istəyirik ki, tədbir B2B formatında keçiriləcək. Tədbirdə iştirak etmək istəyən şəxslər aşağıdakı nömrələrdən Koreya Ticarət və İnvestisiyaların Təşviqi Agentliyinə (KOTRA) zəng edərək ətraflı məlumat əldə edə bilərlər.

**KOTRA - Korea Business Center, Baku**
**Commercial Section of the Embassy of the Republic of Korea**
**12 B. Bagirova str., Maryam Plaza, office 304**
**Tel: (+994 12) 436 75 60 / 61**
**Fax: (+994 12) 436 75 62**
**Mob: (+994 51) 826 77 85**

## B İ L D İ R İ Ş

Bakı Şəhər İcra Hakimiyyəti "Yaşıl Teatr" Bakı Konsert Kompleksinin "Azərbaycan" qəzetinin 15 noyabr 2018-ci il tarixli sayında dərc edilmiş açıq tender elanında sənədlərin qəbulu günü 15 dekabr 2018-ci il əvəzinə 17 dekabr 2018-ci il olmalıdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Mərkəzi Bankında istismarda olan informasiya sistemlərinin texniki və proqram platformalarının dəstəklənməsi və informasiya təhlükəsizliyi üzrə müdaxilə sınaqlarının keçirilməsi ilə bağlı tenderin nəticələrinə dair elan

Azərbaycan Respublikasının Mərkəzi Bankında istismarda olan informasiya sistemlərinin texniki və proqram platformalarının dəstəklənməsi və informasiya təhlükəsizliyi üzrə müdaxilə sınaqlarının keçirilməsi ilə bağlı elan edilmiş açıq tenderin 3-cü LOT-u üzrə "SolidLab" şirkəti qalib elan edilmişdir. Qalib şirkətlə satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Nəyə və nə qədər pul xərcləyirik

Cari ilin yanvar-oktyabr aylarında ölkə üzrə pərakəndə ticarət şəbəkələrində satılmış məhsulların dəyəri əvvəlki ilin eyni dövrünün səviyyəsini müqayisəli qiymətlərlə 2,6 faiz üstələyərək 29,5 milyard manata satmışdır. Ticarət dövriyyəsinin 14,8 milyard manatını ərzaq, içkilər və tütün məmulatları, 14,7 milyard manatını qeyri-ərzaq məhsulları təşkil etmişdir. Satılmış məhsulların dəyəri 2017-ci ilin eyni dövründəkindən real ifadədə, müvafiq olaraq, 2,1 və 3,2 faiz çox olmuşdur.

Dövlət Statistika Komitəsinin bu barədə yaydığı məlumatda daha sonra bildirilir ki, 10 ay ərzində alıcıların son istehlak məqsədilə aldıqları mallara xərclədikləri vəsaitin 45,8 faizi ərzağın, 4,3 faizi içkilər və tütün məmulatlarının, 18,4 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 6,2 faizi elektrik malları və mebellərin, 5,8 faizi avtomobil yanacağının, 1,4 faizi əczaçılıq və tibbi malların, 0,7 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 17,4 faizi isə digər qeyri-ərzaq mallarının alınmasına sərf edilmişdir.

Bu dövrdə istehlak məhsullarının 17 faizi ticarət müəssisələri, 50,9 faizi fərdi sahibkarlar tərəfindən, 32,1 faizi bazar və yarmarkalarda satılmışdır. Keçən ilin eyni dövrü ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi real ifadədə müəssisələr üzrə 37,1 faiz artmış, fərdi sahibkarlar üzrə 1,1, bazar və yarmarkalarda 4,4 faiz azalmışdır.

Hesabat dövründə əhalinin bir nəfərinə düşən orta aylıq pərakəndə ticarət dövriyyəsi 300,4 və ya 2017-ci ilin müvafiq dövrünün göstəricisindən nominal ifadədə 1,2 manat çox olmuşdur. Ticarət şəbəkəsində bir ölkə sakini orta hesabla hər ay 150,6 manatlıq ərzaq, içkilər və tütün məmulatları, 149,8 manatlıq qeyri-ərzaq məhsulları almışdır.

*"Azərbaycan"*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Rəssamlıq Akademiyasının rektoru, xalq rəssamı Ömər Eldarova həyat yoldaşı

**ERNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rəhbərliyi və kollektivi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlıya anası

**SÜSƏN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ədliyyə Nazirliyi Penitensiar Xidmətin rəhbərliyi və kollektivi Azərbaycan Rəssamlıq Akademiyasının rektoru Ömər Eldarova əzizi

**ERNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı Ağalar Vəliyev Hacı Atakişi Atakişiyevə həyat yoldaşı

**ŞABİKƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatı Ağalar Vəliyev Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarova anası

**QÖNÇƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Mahir Quliyev və Biləsuvar Rayon İcra Hakimiyyəti başçısı aparatının kollektivi Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlıya anası

**SÜSƏN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov və professor-müəllim heyəti Azərbaycan Rəssamlıq Akademiyasının rektoru, akademik Ömər Eldarova həyat yoldaşı

**ERNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Dəmir Yolu və Metropoliten üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin direktoru Həsən Bayramov Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlıya və Bakı Şəhər Prokurorluğunun şöbə rəisi Tariyel Qurbanova anaları

**SÜSƏN XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sahir Məmmədxanov Kamil və Əbülfəz Atakişiyevlərə anaları

**ŞABİKƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8398
Sifariş 3362